Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

18 OKTYABR 2019-cu il

№ 186 (4084)

Qiymətı 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# AZƏRBAYCAN PREZİDENTİNİN İSLAHATLAR KURSUNA BƏZİ MƏMURLARIN «ANTİREFORMATOR QƏSDİ»...

səh. 3

Prezident Əliyev Saleh Məmmədovdan konkret tələb etdi - Bakının qəsəbələrdaxili və qəsəbələrarası yolları asfaltlanmalıdır...

səh. 2

Prezident banklar barədə ictimai rəyin ən həssas məqamını tutdu - banklar əhalini kütləvi şəkildə hakimiyyətdən narazı salmaqla məşğuldur...

səh. 11

Prezident ünvanlı yardım alan ailələrin sayının artırılmasına yol açdı...

səh. 10

Azərbaycanın Qarabağda hərbi güc tətbiqi haqqı qəti qalib gəlir...

səh. 9

Rusiya-Azərbaycan atom-nüvə əməkdaşlığı perspektivi və Ermənistanın narahatlığı - Paşinyanın bir niyyəti də puç olur...

səh. 7

Dünya "taxıl OPEK"i yaradılır, taxıl idxalçısı Azərbaycan üçün yeni taxıl ticarəti şəraiti...

səh. 13



səh. 8

## Mətbuatı daxili çəkişmələrə alət kimi qoşmaq istəyən məmurlara ağır xəbərdarlıq...



Baş nazir Əli Əsədova iş platforması - hökumətin əsas vəzifələri necə olmalıdır...

səh. 5

AMEA institutlarının magistr təhsilində ciddi problem - müəllimlər dərsə gəlmir

səh. 15




Polisin işindən ictimai məmnunluq reytinqinə görə Azərbaycanın fantastik yüksəlişi - 52-ci yerdən 30-cu yerə...

səh. 6

səh. 4

Prezidentin media həssaslığı: islahatlara alternativ yoxdur



səh. 5

Bakı Türk sammiti - təcavüzkar Ermənistana qarşı vahid türk-islam siyasətinin formalaşma perspektivləri...



səh. 6

"Milli Şura" radikalları 19 oktyabr planları ilə yenə ölkəni qarşıdurmaya çəkmək yolu seçir



səh. 11

Vergidən iri məbləğdə yayınan şirkətlərin "nəfəsini kəsəcəklər"



səh. 10

Qeyri-neft sənayesində 15, kənd təsərrüfatında 7 faiz artım nəyin hesabına əldə olunub?



## Minsk Qrupu həmsədrləri Bakıda İlham Əliyevin qəbulunda oldular

**Prezident İlham Əliyev oktyabrın 17-də ATƏT-in Minsk Qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədri İqor Popovu, ABŞ-dan olan həmsədri Endrü Şeferi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul edib.**

Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri müzakirə edilib.

## Rusiyalı həmsədr Aşqabadda Əliyevlə Paşinyanın müzakirə apardıqlarını ilk dəfə təsdiqlədi

*Azərbaycanlı icma rəhbəri nəticəsiz danışıqları həmsədrlərə irad tutdu*

**ATƏT-in Minsk Qrupunun Rusiyadan olan həmsədri İqor Popov həmsədrlərin regiona səfərinin nəticələri ilə bağlı məlumat verib.**



"Trend"in məlumatına görə, İ.Popov bildirib ki, həmsədrlərin regiona səfəri oktyabrın 17-də yekunlaşır: "Biz srağagün İrəvanda olduq, Xarici İşlər naziri, Müdafiə naziri ilə görüşdük. Bu gün isə Azərbaycan Prezidenti İlham Əliyevə görüşdük, eyni zamanda, gördüyünüz kimi, biz Dağlıq Qarabağın Azərbaycanlı icması ilə görüşürük. Biz görüşlərdə danışıqlar prosesi ilə bağlı vəziyyəti müzakirə etdik, tərəflərin istəklərini dinlədik. Biz, eyni zamanda, Azərbaycan Prezidenti və Ermənistan Baş nazirinin Aşqabadda baş tutan danışıqlarının nəticələrini müzakirə etdik. Hesab edirik ki, nəticələr pis deyil".

İ.Popov, həmçinin, nazirlər səviyyəsində görüşlərin təşkil edilməsi məsələsinə toxunub: "Biz hələ ki, xarici işlər nazirləri səviyyəsində görüşlərinin təşkil edilməsini davam etdirməyi planlaşdırırıq. Bu görüşləri beynəlxalq tədbirlər çərçivəsində təşkil etmək mümkündür. Dekabr ayında ATƏT-ə üzv olan dövlətlərin xarici işlər nazirlərinin görüşü olacaq. Tərəflər istəklərini ifadə etsələr, biz görüşü təşkil edə bilərik".

Dağlıq Qarabağın Azərbaycanlı İcması İctimai Birliyində ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüş keçirilib.

Görüşdə çıxış edən birlik sədri Tural Gəncəliyev bildirib ki, Azərbaycan cəmiyyəti danışıqlar prosesinin nəticəsiz qalmasından narahatdır: "Bizdən danışıqlar prosesinin nəticəsi barədə soruşurlar, ancaq mən onlara konkret cavab verə bilmirəm. Əlbəttə, biz sizin səylərinizi qiymətləndiririk, ancaq nəticəsiz danışıqlar cəmiyyəti narahat edir. Biz konkret nəticələr görmək istəyirik".

Birlik sədrinin sözlərinə görə, Azərbaycan tərəfi məsələnin sülh yolu ilə həllini tapmasına, sülh şəraitində yaşamağa hazırdır: "Lakin ermənilər buna hazır deyillər. Dağlıq Qarabağın erməni icması birgə sülh şəraitində yaşamaqdan imtina edir".

# Prezident Əliyev Saleh Məmmədovdan konkret tələb etdi - Bakının qəsəbələrdaxili və qəsəbələrarası yolları asfaltlanmalıdır...

*Saleh Məmmədov Prezident Əliyevə hesabat verdi...*

**Prezident İlham Əliyev oktyabrın 17-də Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin idarə heyətinin sədri Saleh Məmmədovu qəbul edib.**



Ölkəmizdə yol tikintisinin geniş vüsət aldığını bildirən Prezident deyib:

- Yol tikintisi Azərbaycanda geniş vüsət alıb. Hər il bizdə min kilometr yeni yol çəkilir. Bu il də istisna deyil. Şadam ki, Davos Ümumdünya İqtisadi Forumunun son hesabatında bu sahədə də irəliləyiş var. Keçən dəfə yolların keyfiyyətinə görə biz 34-cü yerdə olmuşuqsa, bu il 27-ci yerdəyik və MDB məkanında birinci yerdəyik. Bu, onu göstərir ki, yol infrastrukturuna qoyulan sərmayə öz səmərəsini verir. Yol tikintisi geniş vüsət alıb və yollar yüksək keyfiyyətlə tikilir. Belə də davam edin. Azərbaycanın bütün yolları bundan sonra da ən yüksək standartlara cavab verməlidir.

Bu ilin investisiya proqramında yolların tikintisi üçün kifayət qədər vəsait ayrılıb. Həm magistral yolların, şəhərlərarası, kəndlərarası və kənd yollarının çəkilişi üçün. Magistral yollara gəldikdə, biz əsas qonşularımızla - üç qonşu ölkə ilə yollarımızın çəkilişini demək olar ki, başa çatdırmışıq. İndi Rusiya sərhədinə qədər yeni yol çəkilir. Bu barədə məlumat verərsiniz. Eyni zamanda, Gürcüstan istiqamətinə - Gəncədən sərhədə qədər ikizolaqlı yolu biz dördzolağa genişləndiririk. Bu layihə haqqında da məlumat verərsiniz. İran sərhədinə qədər yolun bir hissəsinin çəkilişi hələ qalıb, əsas yol çəkilib, məsafə də qısalıb. Bu da çox önəmli layihədir.

Bu il, eyni zamanda, şəhərlərarası yolların çəkilişinə və kənd yollarının tikintisinə vəsait nəzərdə tutulub. O cümlədən son dəfə mən sizə tapşırıq verdim ki, Bakı qəsəbələrinin yollarına da diqqət yetirilsin. Bakının həm qəsəbələrarası, həm də qəsəbədaxili yolları təmir olunmalıdır, yeni yollar çəkilməlidir. Bəzi yerlərdə hələ torpaq yollar mövcuddur. Torpaq yollar olmamalıdır. Qəsəbədaxili yollara asfalt vurulmalıdır. İndi isə məruzə edin, bu günə qədər nə işlər görülüb və ilin sonuna qədər hansı addımlar atılacaq?

Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov tikilmiş və tikilməkdə olan mühüm yollar barədə ətraflı məlumat verərək sonda deyib:

-Möhtərəm cənab Prezident, Sizin birbaşa göstərişiniz və qayğınız nəticəsində bu il Bakının qəsəbələrində 242 kilometr daxili yollar asfaltlanaraq tam istifadəyə verilib. İndi həmin qəsəbələrin əhalisi çox rahat yollardan istifadə edirlər. Bundan əlavə, ilin sonunadək qəsəbələrdə daha 57 kilometr yolun çəkilişi başa çatdırılacaq. Yəni, biz Sizin tövsiyənizlə qəsəbədaxili müasir yolların uzunluğunu bu il təqribən 300 kilometrə çatdıracağıq. Buna da Sizin tərəfinizdən vəsait ayrılmışdır. Biz çalışırıq ki, ayrılmış vəsait hesabına həmin yolların çəkilişini yüksək səviyyədə başa çatdıraq.

Prezident İlham Əliyev: İndi gələn ilin investisiya proqramının müzakirəsi gedir. Əlbəttə ki, yol çəkilişi dövlət investisiya proqramında əhəmiyyətli yer tutacaqdır.

# Daxili İşlər Nazirliyi və Baş Prokurorluq oktyabrın 19-da qanunsuz aksiya planlaşdıranlara ciddi xəbərdarlıq etdi...

*"İctimai asayişin pozulmasına yönələn qanunsuz hərəkətlərin qarşısı qətiyyətlə alınacaq"*





**Son günlər sosial şəbəkələr üzərindən özünü Demokratik Qüvvələrin Milli Şurası adlandıran quruma daxil olan partiya və birliklər, eləcə də özünü Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri kimi təqdim edən Əli Kərimli, həmin qurumun rəhbərliyində təmsil olunan şəxslər, habelə əvvəllər müxtəlif cinayətlər törətməklə saxta yollarla xarici ölkələrdə sığınacaq almış sosial şəbəkə istifadəçiləri tərəfindən oktyabrın 19-da "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə zidd olaraq Bakı metropoliteninin "28 May" stansiyasının önündə qanunsuz aksiya keçirilməsinə çağırışlar edilir.**

Bildirilir ki, Milli Şuranın oktyabrın 19-da saat 15-dən 17-dək mitinq keçirilməsi ilə bağlı müraciətinə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən baxılıb. "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin 3-cü hissəsinin 2-ci bəndinə əsasən Metropolitenin mühafizə zonalarında toplantıların keçirilməsi qadağan edildiyindən, Şəhər İcra Hakimiyyəti tərəfindən mitinqin qeyd olunan vaxtda Bakı şəhəri, Lökbatan qəsəbəsi, 28 May küçəsi, "Neftçi" idman klubunun Qaradağ təlim idman bazasında keçirilməsi təklif edilib. Lakin buna baxmayaraq, təşkilatçılar həmin vaxtda qanunla qadağan edilmiş yerdə, yeni Metropolitenin qarşısında razılaşdırılmamış qanunsuz aksiya keçirəcəkləri barədə məlumatlar paylaşıblar.

Xatırladaq ki, Milli Şuranın oktyabrın 8-də Bakı Şəhər İcra Hakimiyyəti ilə Dövlət İqtisad Universitetinin inzibati binalarının arasında yerləşən ərazidə 50 nəfərin iştirakı ilə piket keçirilməsi, Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmasına baxmayaraq, onların faktiki olaraq küçə yürüşü keçirməyə cəhd etməsi nəqliyyatın hərəkətinin iflic olmasına, ətrafdakı insanların haqlı narazılığına nəticə etibarı ilə ictimai asayişin pozulmasına səbəb olub. Lakin buna baxmayaraq, həmin hüquqazidd əməllərin qarşısı alınıb və qanunun tələblərini pozan şəxslər barəsində müvafiq tədbirlər görülüb.

Bütün bunlar AXCP rəhbərliyinin və həmin qanunsuz aksiyanın təşkilatçılarının əsas məqsədinin toplantı keçirmək deyil, əhalinin kütləvi toplaşdığı və qanunla qadağan edilmiş yerlərdə ictimai asayişin pozmaq olduğunu göstərir.

Daxili İşlər Nazirliyi və Baş Prokurorluq bəyan edir ki, qanunsuz kütləvi aksiyaya çağırış edən AXCP rəhbərliyi, həmin aksiyanın təşkilatçıları və iştirakçıları tərəfindən Bakı şəhər İcra Hakimiyyətinin təklif etdiyi yerdən kənar ictimai qaydanı pozmaqda və hakimiyyət nümayəndələrinin qanuni tələblərinə tabe olmamaqda ifadə olunan, əhalinin rahatlığını, müəssisə, idarə və təşkilatların normal fəaliyyətini və nəqliyyatın işini pozan qanunsuz hərəkətlərə yol veriləcəyi təqdirdə bütün məsuliyyət onların üzərinə düşəcək.

Bu səbəbdən də həmin şəxslərə bir daha xəbərdarlıq edilir ki, hüquq-mühafizə orqanları tərəfindən qanunsuz əməllərin qarşısı qətiyyətlə alınacaq və qanunun tələblərini pozan şəxslər barəsində, cinayət məsuliyyəti də daxil olmaqla, qanunvericilikdə nəzərdə tutulmuş ən ciddi tədbirlər görüləcək.

# Azərbaycan Prezidentinin islahatlar kursuna bəzi məmurların "antireformator qəsdi"...

**Fəzail Ağamalı:** *"Prezidentin çıxışı növbəti kadr islahatlarının anonsudur"*

**"Bu gün iqtidarda olan bəziləri də islahatlara qarşı çıxış edirlər. Bu islahatlar onların şəxsi maraqlarına toxunur". Bunu Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 15-də keçirdiyi iqtisadi müşavirədə deyib. Dövlət başçısı daha sonra bildirib: "Onlar hər vəchlə bizim işimizə əngəl törətmək istəyirlər.**



İslahatlara meylli olan, yeni təfəkkürə malik kadrları qaralayırlar, o cümlədən, mətbuatda. Mətbuat, bir növ, daxili mübarizə növünə çevrilib. Bu, dözülməzdir. Mən indi dərinə getmək istəmirəm. Amma bildirməliyəm: bu, dözülməzdir, bir hökumətin bəzi üzvləri digər üzvləri tərəfindən şantaj edilir. Onlar ləkələnir. Prezidentin tapşırığı ilə onların apardığı islahatların üzərinə kölgə salınır. Dözülməz vəziyyətdir".

Ölkə başçısının fikrincə, kimsə hesab edir ki, biz bununla barışmalıyıq, səhv edir: "Çünki islahatlara alternativ yoxdur. Kim bu yolun yolçusudursa, əlbəttə, işləyəcək. Amma kim buna qarşı çıxır və altdan-altdan bizim işimizə mane olmaq istəyir, əlbəttə ki, biz belə adamlarla bir yolun yolçusu ola bilmərik. Ona görə bir də demək istəyirəm ki, əhali də bilsin və hər kəs mənim sözümü eşitsin. Çox güclü siyasi iradə ortaya qoyulub. Biz Azərbaycanı müasir, sürətlə inkişaf edən, şəffaflığı öz siyasətində bayraq edən ölkə kimi görmək istəyirik və buna nail olacağıq. Heç kim bu işdə bizə mane ola bilməz".

Prezident İlham Əliyevin hakimiyyət komandasında islahatlara maneə yaradanların olması barədə fikirləri geniş müzakirələrə səbəb olub. Ölkə başçısı bunu deməklə çox önəmli məqamlara toxundu. Məlum oldu ki, hakimiyyət daxilində hökumətin apardığı vahid siyasi xəttə qarşı fəaliyyət göstərənlər var. Onlar bu cür xoşagəlməz fəaliyyətlə görülən işləri tormozlamağa, islahtların effektini aşağı salmağa və bunun nəticəsində ictimaiyyətdə narazılıq yaratmağa çalışırlar. Köhnə təfəkkürə malik olan belə məmurlar yenilikləri qəbul etmək istəmir və öz şəxsi mənafelərinə uyğun idarəçiliklə məşğuldurlar. Bununla belə, ehtimal etmək olar ki, müəyyən beynəlxalq dairələr bunlardan öz mənafeləri üçün istifadə edirlər. Yəni bunun nəticəsində hakimiyyətlə xalq arasında uçurum yaransın, daxildə narazılıqlar baş qaldırsın. Çünki sağlam və praqmatik düşüncəyə malik olan məmur dövlətin maraqlarından çıxış edərək görülən işlərə, yeniliklərə mane olmamalıdır. Ancaq aydın olur ki, yuxarıda sadalanan xoşagəlməz işlərlə məşğul olan bəzi məmurlar bu düşüncədən uzaqdırlar. Onlar istəmirlər ki, islahatçı və dinamik hökumət komandası mövcud olsun.

*"Köhnə təfəkkürlü, müasir zamanla ayaqlaşmayan, dövlətimizə töhfə vermək əvəzinə..."*

Məsələyə münasibət bildirən millət vəkili Fəzail Ağamalının fikrincə, ölkə başçısı müşavirədə çox ciddi məsələlərə toxundu: "Prezident əldə olunan uğurları qeyd etməklə yanaşı, çatışmayan məqamların da təsnifatını önə çəkdi. Bu nöqsanların aradan qaldırılmasının yollarını göstərdi. Prezident bütün nöqsanların aradan qaldırılmasını önə çəkərək hökumətə öz tapşırıqlarını verdi. Cənab Prezident korrupsiyanın, rüşvətxorluğun, kölgə iqtisadiyyatının aradan qaldırılmasına xüsusi diqqət yetirdi. Ölkə başçısı iri şirkətlərin vergidən yayınmasının yolverilməzliyini vurğuladı. Prezident Azərbaycan iqtisadiyyatına, onun inkişafına mane olan digər məqamları da sadalayıb. Prezidentin çıxışında sözügedən amilləri qabartması kifayət qədər narahatedici məqamdır. Ölkə başçısı səviyyəsində belə problemlərin Azərbaycan ictimaiyyətinin diqqətinə çatdırılması düşündürücüdür. Bəzi məmurlara köhnə təfəkkürlə, köhnə metodlarla fəaliyyət göstərmək onlar üçün yaşam tərzidir.

Bu da, əlbəttə ki, yolverilən deyil. Prezident tərəfindən köhnə təfəkkürlü məmurlara çox ciddi xəbərdarlıq edildi. Prezidentin çıxışı növbəti kadr islahatlarının anonsudur. Köhnə təfəkkürlü, müasir zamanla ayaqlaşmayan, dövlətimizə töhfə vermək əvəzinə, inkişafa mane olan məmurların vəzifələrindən uzaqlaşacağı gün çox da uzaqda deyil. Deputat və partiya sədri kimi Prezidentin çağırışlarını birmənalı şəkildə müdafiə edirəm".

*Vidadi ORDAHALLI*




18 OKTYABR –
DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜ

*münasibəti ilə xalqımızı təbrik edir, müstəqilliyin daha da möhkəmləndirilməsi yolunda Azərbaycan dövlətinə uğurlar arzulayırıq!*

AVROMED

# Prezidentin media həssaslığı: islahatlara alternativ yoxdur

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev oktyabrın 15-də keçirdiyi müşavirədə ölkənin inkişafı ilə bağlı bir sıra vacib məqamları vurğuladı. O, həmçinin, bu inkişaf üçün aparılan islahatlara maneçilik törədən hallar barədə də ətraflı söz açdı.**



**Əflatun Amaşov**
*Mətbuat Şurasının sədri, deputat*

İslahatların iqtidarda olan bəzi şəxslərin mənafeyinə toxunduğunu diqqətə çatdıran dövlət başçımız həmin şəxslərin öz istək və maraqlarını təmin etmək üçün mətbuatda qarayaxma kampaniyası apardıqlarını önə çəkdi. Cənab İlham Əliyevə belə həssas məsələyə diqqət ayırdığı üçün təşəkkürümü bildirirəm.

Azərbaycan Mətbuat Şurası ayrı-ayrı şəxslərin mediadan korporativ maraqlar naminə yararlandıqları reallığını dəfələrlə vurğulayıb. Bunu bəzən özlərinə rəqib şəxslər barədə kompromat materiallar dövriyyəyə buraxmaqla gerçəkləşdiriblər. Həmin materiallar isə, bir qayda olaraq, jurnalistikadan sui-istifadə edənlərin əlinə düşüb. Mətbuat Şurası belələrini "reket jurnalistlər" adlandırır. Hətta bəzi məmurlarla "reket jurnalistlər" arasında təmasın olduğuna dair şübhələrimiz də olub. Bu qənaətimiz Şuraya daxil olan şikayətlərin motivinə əsaslanıb.

Azərbaycan Mətbuat Şurası belə hallara qarşı daim mübarizə aparıb. İllərdir Şuranın tərkibində "Reket jurnalistika"ya qarşı mübarizə Komissiyası fəaliyyət göstərməkdədir. Komissiyada dövlət qurumlarının nümayəndələri də təmsil olunurlar.

Mətbuat Şurası peşə vəzifəsindən sui-istifadə edən, insanların şərəf və ləyaqətini aşağılayan, işgüzar nüfuzuna zərər vuran kütləvi informasiya vasitələrinin adlarının yer aldığı "qara siyahı" tərtib edib. "Qara siyahı" media sahəsindəki yarıtmazlıqlara qarşı mübarizədə ən tutarlı ictimai qınaq tədbiridir. Ancaq bu yetərlidirmi? Təbii, yox.

Bəli, ictimai qınaq yetərli deyil. Çünki məsələnin kökündə hansısa KİV-in peşə müstəvisində yol verdiyi nöqsan və ya nöqsanlar dayanmır. Bir çox məsələ bilərəkdən, planlaşdırılmış şəkildə həyata keçirilir. Cənab Prezidentin çıxışında səsləndirdiyi məqamlar məhz bundan irəli gəlir.

Ölkədə aparılan islahatları gözləri götürməyən qüvvələr mövcuddur. Ancaq məsələnin digər tərəfi də var. Heç kəs təminat verə bilməz ki, bu qüvvələr nə vaxtsa xaricdəki antimilli dairələrlə əlaqə qurmayacaqlar. Bu gün islahatı özlərinin şəxsi maraqlarına təhdid kimi görənlər sabah bu təhlükəni aradan qaldırmaq üçün kimlə desən əməkdaşlığa gedərlər. Şübhəsiz ki, hazırkı boşluqda onların medianın gücündən faydalanma ehtimalları mümkündür. Deməli, qarşıda duran vəzifə həmin boşluğu aradan qaldırmaqdır. Yəni bir daha vurğulayım, yalnız ictimai qınaqla kifayətlənmək olmaz.

Medianın sırf dövlət tərəfindən nizamlandığı, tənzimləndiyi dövrə qayıda bilmərik. Buna görə Azərbaycan Mətbuat Şurasının hüquqi statusunun dəyişdirilməsini təklif etmişik. Nəzərə almaq lazımdır ki, medianın özünütənzimləmə modeli kimi Şuranın ictimai qınaqdan başqa müəyyən təsir rıçaqları olmalıdır. Bu, yalnız bizim fikrimiz deyil, bütövlükdə, media ictimaiyyətinin mövqeyidir.

İkincisi, bu gün internet media orqanlarının həyatımıza təsiri çox güclüdür. Amma bu təsir cəmiyyətin tələblərinə nə dərəcədə adekvatdır? Biz bəzən yayımladığı material şikayətə səbəb olmuş internet KİV-in ünvanını tapa bilmirik. Sayta baxırsan, heç bir əlaqə vasitəsinə rast gəlinmir. Çünki KİV kimi bunu onlardan heç tələb edən də yoxdur. Yəni məsələnin hüquqi məsuliyyətini daşımırlar. Buna görə təklif etmişik ki, internet media hüquqi münasibətlər sistemində özünə məhz KİV kimi yer tutsun.

Ümumən islahatlar KİV sahəsini də əhatə etməlidir. Reklam bazarı genişləndirilməlidir. Bunun üçün hüquqi mexanizmlər işə salınmalıdır. KİV-in yayımı və satışı işi təkmilləşdirilməlidir. Əgər birbaşa qanunvericilik islahatından danışırıqsa, diffamasiya məsələsinə ciddi önəm verilməlidir. Nəzərə alınmalıdır ki, diffamasiyanın dekriminallaşdırılması yalnız təhqir və böhtana görə cinayət məsuliyyətinin aradan qaldırılması demək deyil. Diffamasiya mühiti media sisteminə yeni düzən gətirən sistemdir. Dünya praktikasına baxsaq, bu sistemdə sözə, ifadə edilən fikrə görə məsuliyyət həddən artıq böyükdür, cəza tədbirləri isə kifayət qədər adekvatdır. Biz buna nail olmalıyıq.

Bir daha bildirməliyəm ki, cənab İlham Əliyevin iqtisadi müşavirədə səsləndirdiyi fikirlər son dərəcə vacibdir, aktualdır. İstənilən cəmiyyətdə yeniliyi, bir növ, süngü ilə qarşılayanlar olur. Azərbaycanda da var. Dövlət başçımız çıxışında bunun media üzərindən gerçəkləşdirildiyinin anonsunu verdi. Bu bizim üçün kifayət qədər ciddi siqnaldır.

Əlbəttə, media islahat gedişində nəzərə çarpan nöqsanları, çatışmazlıqları diqqətə çatdırmalı, hətta ən sərt tənqidə də yer verməlidir. Ancaq heç bir halda tənqid qərəzə köklənməməlidir, onun hərəkətverici qüvvəsi yalnız ictimai maraq və mənafe olmalıdır. Hansısa media orqanı nəyinsə müqabilində islahatın qarşısında dayanan qüvvənin ruporu rolunda çıxış edirsə, özünün ictimai missiyasını unutmuş olur. Dövlət başçısının da bildirdiyi kimi, ortaya çox ciddi siyasi iradə qoyulub - "Biz Azərbaycanı müasir, sürətlə inkişaf edən, şəffaflığı öz siyasətində bayraq edən ölkə kimi görmək istəyirik və buna nail olacağıq". Peşəsinə sadiq jurnalistlərin toplaşdıqları media orqanlarımız məhz bunun üçün çalışırlar və heç bir qüvvə bu yolun gedilməsinə qarşı çıxa bilməz.

# Qarabağ münaqişəsinin həlli ilə bağlı əsas iş MDB-də yox, ATƏT çərçivəsində gedir



**Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı əsas iş ATƏT-in Minsk Qrupu çərçivəsində aparılır, Müstəqil Dövlətlər Birliyində deyil. Bunu Azərbaycanın Xarici işlər Naziri Elmar Məmmədyarov "İzvestiya"ya müsahibəsində MDB-nin Qarabağ münaqişəsinin həllində rolunu şərh edərkən deyib.**

XİN başçısı xatırladıb ki, əvvəllər Azərbaycanla Ermənistan arasındakı münaqişənin nizamlanması ilə BMT məşğul olub.

"Bildiyiniz kimi, ölkələr arasında sülhün və təhlükəsizliyin qorunması üzrə əsas orqan olan BMT Təhlükəsizlik Şurası münaqişənin qızğın dövrü olan 1993-cü ildə formatları müəyyənləşdirdi, münaqişənin həllinə zəmin hazırladı və dörd qətnamə qəbul etdi", - deyə nazir bildirib.

Məmmədyarov qeyd edib ki, sonra sülh təşəbbüsü ATƏT-in Minsk Qrupuna ötürülüb və o, indi də beynəlxalq təşkilatın ona verilimiş mandatına uyğun olaraq Bakı ilə İrəvan arasında tənzimləmə ilə məşğuldur. Üç həmsədrin rəhbərlik etdiyi Minsk Qrupu bu münaqişənin həlli ilə bağlı ATƏT-in əsas agentidir.

"Biz MDB Xarici İşlər Nazirləri Şurası müstəvisində, şübhəsiz ki, bu mövzuya qısaca toxunduq - hamımız başa düşürük ki, MDB məkanında həll olunmamış münaqişələr yalnız başda iqtisadi, humanitar və digərləri olmaqla istənilən fəaliyyətə maneələr yaradır", - deyə o əlavə edib.

"Birliyin bütün on ölkəsi, o cümlədən Azərbaycan və Ermənistan bu münaqişənin sürətli həllini tapmağın lazım olduğunu qəbul etdi. Ancaq etiraf etmək lazımdır: nizamlanma ilə bağlı əsas iş MDB-də deyil, ATƏT-in Minsk Qrupu çərçivəsində həyata keçirilir", - deyə Məmmədyarov fikrini tamamlayıb.

**Prezident İlham Əliyev keçirilən iqtisadi müşavirədə Baş nazir vəzifəsinə gətirilən Əli Əsədova verdiyi tapşırıqlardan danışıb. Ölkə başçısı Ə.Əsədovun Baş nazir təyin edilməsi ilə bağlı bir sıra məqamlara toxunub: "Bir neçə gün bundan əvvəl mənim sərəncamımla Ə.Əsədov Baş nazir vəzifəsinə təyin edilib.**

# Baş nazir Əli Əsədova iş platforması - hökumətin əsas vəzifələri necə olmalıdır...

***Qabil Hüseynli:** "Nazirlər Kabinetinə kadr seçəndə birinci onun peşəkarlıq qabiliyyəti nəzərə alınmalıdır"*



Ə.Əsədov uzun illər mənim köməkçim kimi fəaliyyət göstərib. Əminəm ki, Baş nazir kimi o, mənim tərəfimdən qarşıya qoyulan vəzifələri icra edəcək. Əsas vəzifə iqtisadi artımı daha da yüksək rəqəmlərə qaldırmaq və islahatları davam etdirməkdir".

Bununla belə, Prezident çıxışında yeni Baş nazirin qarşısında bir sıra tapşırıqlar qoyub: "Mən Ə.Əsədovu bu vəzifəyə təyin edərkən ona bir çox vəzifələr tapşırdım. Onun qarşısına vəzifə qoydum ki, islahatlar aparılmalıdır, o cümlədən, kadr islahatları. Müasir dünyagörüşlü, müasir iqtisadiyyatı bilən, savadlı gənc kadrlar işə cəlb edilməlidir. Biz XXI əsrdə yaşayırıq, köhnə təfəkkürlə, köhnə biliklərlə gələcəyə necə gedə bilərik? Nə qədər biz təbii resurslara arxalanaraq, necə deyərlər, belə ətalət yolu ilə gedə bilərik? Düzdür, islahatlar aparılır, dediyim rəqəmlər bunun əyani sübutudur. Hər bir ölkə bu nəticələrlə öyünə bilər. Ancaq biz bilirik ki, ehtiyatlarımız çoxdur. Onu da bilirik ki, əgər hər hansı dövlət və ya özəl quruma təmiz, bilikli və Vətənə bağlı kadr gətirilirsə, biz orada dərhal dəyişiklikləri görürük".

Qeyd edək ki, Ə.Əsədov bu ilin oktyabr ayının 8-də Baş naziri təyin olunub. Prezident İlham Əliyevin məlum fikirləri, bir növ, Nazirlər Kabinetinin yeni simasını müəyyən edir. Əslində, ölkənin Nazirlər Kabineti sırf yuxarıda sadalanan prinsiplər əsasında qurulmalı və fəaliyyət göstərməlidir. O üzdən, belə bir kabinetin formalaşdırılması Baş nazirin başlıca vəzifəsi olmalıdır. İslahatların aparılması ilə yanaşı, müasir dövrün tələblərinə uyğun kadrların seçilməsi Nazirlər Kabinetinin daha çevik və dinamik fəaliyyət göstərməsinə təkan verəcək. Eyni zamanda, qurumun işləkliyini artıracaq. İndiyə qədər əvvəlki baş nazirlərin timsalında bu özünü göstərməyib. Ümid edirik ki, bundan sonra belə olmayacaq.

*"İslahatların taleyini məhz belə kadrlar müəyyən edəcək"*

Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynlinin sözlərinə görə, Prezident Nazirlər Kabineti ilə bağlı çox önəmli məqamlara toxundu: "Hesab edirəm ki, Nazirlər Kabinetinin effektivliyini artırmaq üçün bir sıra işlər görülməlidir. Birinci növbədə Nazirlər Kabinetinin səlahiyyətləri artırılmalıdır. O mənada ki, sözügedən qurum Prezident Administrasiyasının bir şöbəsi kimi deyil, praktiki olaraq, müstəqil bir struktur kimi fəaliyyət göstərməlidir. Digər tərəfdən, Nazirlər Kabinetinə kadr seçəndə birinci onun peşəkarlıq qabiliyyəti nəzərə alınmalıdır. Nə dərəcədə peşəkardır və işinin öhdəsindən necə gəlir? Ən başlıcası, həm də müəyyən iş təcrübəsi olmalıdır. Xaricdə oxuyan cavan kadrları ucdantutma vəzifəyə yerləşdirmək olmaz. Onlar müəyyən məktəb, təcrübə keçməlidirlər. Ancaq qocalmış, öz dövrünü başa vurmuş kadrlar var ki, hakimiyyətdə ikitirəlik yaradırlar.

Cavan kadrların irəli çıxmasına maneçilik törədirlər. Bu nöqteyi-nəzərdən də Baş nazir bir sıra parametrlərə diqqət etməlidir. Sırf peşəkarlıq meyarlarına görə kadrları seçmək lazımdır. İslahatların taleyini məhz belə kadrlar müəyyən edəcək. Belə olduğu halda, Nazirlər Kabineti çevik və effektiv fəaliyyət göstərəcək".

***Vidadi ORDAHALLI***

---

**Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) 7-ci zirvə görüşündə Dağlıq Qarabağ münaqişəsinə də toxunulub. Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsindən söz açaraq deyib ki, Ermənistan 30 ilə yaxındır beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirir:**

# Bakı Türk sammiti - təcavüzkar Ermənistana qarşı vahid türk-islam siyasətinin formalaşma perspektivləri...

***Elman Nəsirov:** "Türk və islam dünyasında birliyin olmasının Qarabağ münaqişəsinin həlli istiqamətində oynadığı rola..."*



"İşğal olunmuş ərazilərdə etnik təmizləmə siyasəti aparılıb, bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Həmin ərazilərdə Azərbaycan xalqına məxsus tarixi-mədəni irs, islam abidələri və məscidlərimiz dağıdılıb və məhv edilib.

Ermənistan çalışır ki, müsəlman ölkələri ilə sıx əməkdaşlıq qursun. Ancaq dünya müsəlmanları üçün müqəddəs olan məscidləri dağıdan Ermənistan müsəlman ölkələri ilə dost ola bilməz. Dinimizə qarşı edilən bu vandallıq Ermənistanın islamofob xislətini nümayiş etdirir".

Ölkə başçısı onu da qeyd edib ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının zirvə görüşlərinin yekun bəyanatlarında da dövlətlərin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək davamlı olaraq təsbit edilir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da çıxışında bu məsələyə toxunub: "Azərbaycanın əzəli torpağı Dağlıq Qarabağın və ətrafının Ermənistanın işğalı altında qalması bir milyon qardaş-bacımızı evlərindən, yurdlarından uzaqda qaçqın və köçkün vəziyyətində yaşamağa məcbur edib. BMT Baş Assambleyasındakı nitqimdə də dediyim kimi, bu, qəbuledilməz bir vəziyyətdir. Dağlıq Qarabağ probleminin ən qısa müddətdə sülh yolu ilə və Azərbaycanın ərazi bütövlüyü əsasında həll edilməsi üçün əlimizdən gələn səyləri göstərməyə davam edəcəyik".

O da məlumdur ki, müsəlman ölkələrinin təmsil olunduğu İslam Konfransı Təşkilatı da, birmənalı olaraq, Qarabağ məsələsində Azərbaycanı dəstəkləyir. Bəzi islam ölkələri Qarabağın işğalı ilə əlaqədar Ermənistanla diplomatik əlaqələr belə qurmur. Bütün bunlarla yanaşı, Bakıda keçirilən Türk Şurası Ermənistana qarşı türk-islam dövlətlərinin vahid siyasətinin formalaşmasında necə rol oynayacaq?

Məsələyə münasibət bildirən millət vəkili Elman Nəsirovun fikrincə, sözügedən tədbir bu yöndə müsbət təsir göstərəcək: "Azərbaycan Prezidentinin tədbirdə çıxışı bir daha göstərdi ki, Türk dünyası ölkələri arasında inteqrasiya prosesinin daha da genişlənməsi və nəticə etibarilə, türkdilli ölkələrin üzləşdiyi problemlərin həllinə kömək göstərilməsi olduqca vacib məsələdir. Bu tədbirdə qəbul olunan yekun sənəddə də münaqişə ocaqlarının həlli və Azərbaycanın haqlı mövqeyi, onun ərazi bütövlüyü, suverenliyi və sərhədlərin toxunulmazlığı prinsipi quruma üzv dövlətlər tərəfindən birmənalı şəkildə dəstəklənib. Türk Şurasına üzv ölkələrin bir qisminin həm də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) olması reallığını da nəzərə alsaq, İrəvanın həmin hərbi-siyasi qurumla öyünməsinə baxmayaraq, hadisələrin gedişi və Bakı sammiti göstərdi ki, həmin hərbi qurumdakı ölkələrin hər biri, Ermənistan istisna olmaqla, Azərbaycanın haqq səsini müdafiə edir. Ərazi bütövlüyümüzü tanıyırlar. Türk və islam dünyasında birliyin olmasının Qarabağ münaqişəsinin həlli istiqamətində oynadığı rola gəlincə, ölkəmiz üçün faydalı məqamlarından biri də məhz Azərbaycana dəstək verilməsilə bağlıdır. Bu da çox mühüm məsələdir. Məhz bu əməkdaşlıq və birlik, nəticə etibarilə, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün də yeni imkanlar aça bilər. Düzdür, Türk Şurasına üzv ölkələr və islam ölkələri Qarabağ konfliktinin həllilə birbaşa məşğul deyillər. Türkiyə də, sadəcə, ATƏT-in Minsk Qrupunun üzvüdür. Ancaq həmsədrlik postu başqa 3 dövlətə məxsusdur. Bununla belə, Türk dünyasının birliyi fonunda həmin dövlətlər ən müxtəlif beynəlxalq platformalarda Azərbaycanın haqq işini müdafiə edə və ölkəmizin lehinə hüquqi bazanın gücləndirilməsində mühüm rol oynaya bilərlər. Türk Şurasına daxil olan ölkələr arasında münasibətlərin yüksək səviyyədə olması, nəticə etibarilə həmin təşkilat çərçivəsində Azərbaycanın haqq işinin müdafiə edilməsi anlamına gəlir".

*"Məhz bu əməkdaşlıq və birlik, nəticə etibarilə, münaqişənin həlli üçün də yeni imkanlar aça bilər"*

***Vidadi ORDAHALLI***

# Polisin işindən ictimai məmnunluq reytinqinə görə Azərbaycanın fantastik yüksəlişi - 52-ci yerdən 30-cu yerə...

**İctimai-siyasi sabitlik hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolu seçmiş hər bir dövlətin mövcudluğunun mühüm şərtlərindən biridir. Müstəqil Azərbaycan son illərdə bütün sahələrdə sürətlə inkişaf edir. Azərbaycanın dünya miqyasında sivil, demokratik yolla irəliləyən, beynəlxalq hüquq normalarına və prinsiplərinə hörmətlə yanaşan dövlət imici daha da möhkəmlənib.**




## *Əlimməmməd Nuriyev: "Azərbaycan polisi, yaşından, tutduğu vəzifədən asılı olmayaraq, hər kəsə isti münasibət sərgiləyir"*

Respublikamızda ictimai asayişin, qanunçuluğun və hüquq qaydalarının etibarlı təminatı, vətəndaşların konstitusion mənafelərinin yüksək səviyyədə qorunması, kriminogen durumun sabitliyi Azərbaycanın ötən müddətdə qazandığı ən mühüm nailiyyətlər sırasındadır. Danılmaz həqiqətdir ki, respublikamızın ictimai-siyasi sabitlik şəraitində inkişafında, ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizənin səmərəli təşkilində, dövlətçiliyin hər cür cinayətkar qəsdlərdən müdafiəsində, vətəndaşların təhlükəsiz yaşamaq kimi fundamental hüququnun təminatında Daxili İşlər Nazirliyinin və onun ayrı-ayrı strukturlarının müstəsna rolu var. Cinayətkarlığın bütün forma və təzahürlərinə qarşı amansız mövqe tutan daxili işlər orqanları qanunla üzərlərinə düşən vəzifələri yerinə yetirməklə, iqtisadi inkişafın mühüm şərti olan sabitliyin təminatı üçün bütün zəruri tədbirləri həyata keçirməklə xalqın və dövlətin sadiq keşikçisinə çevrilib, ictimai etimad qazanıblar.

Azərbaycan uzun illərdir əminamanlığın yüksək səviyyədə qorunduğu təhlükəsiz ölkələrdən olmaqla, asayişin təmininə, cinayətkarlıqla mübarizənin nəticələrinə görə MDB, habelə Şərqi Avropa məkanında ön sıralardadır.

Azərbaycanda ictimai asayişin qorunmasında polisin fəaliyyəti tək ölkə daxilində deyil, beynəlxalq təşkilatlar tərəfindən tərtib olunan hesabatlarda da yüksək qiymətləndirilir.

Polisin fəaliyyəti ilə bağlı 141 ölkə arasında tədqiqat keçirilib. Hesabata əsasən, polis orqanlarına əhali tərəfindən inamın səviyyəsinə görə Azərbaycan 30-cu yerdədir. Məlumat üçün bildirək ki, iki il öncə tərtib olunan beynəlxalq hesabatda isə Azərbaycan 52-ci yerdə idi. İki il ərzində Azərbaycanda polisin fəaliyyətindən əhalinin məmnun olması beynəlxalq hesabatlarda da öz əksini tapır.

"Konstitusiya" Araşdırmalar Mərkəzinin rəhbəri, hüquqşünas Əlimməmməd Nuriyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycan cəmiyyətinin polisə inam və etimadı artır: "Azərbaycan polisinə olan ictimai münasibət beynəlxalq təşkilatların hesabatlarında da yüksək qiymətləndirilir: "İki il öncə tərtib olunmuş beynəlxalq hesabatda Azərbaycan polisi 52-ci yerdə idi. Ancaq bu il isə polisə olan münasibət həmin yeri dəyişib. Beləliklə, polisə olan münasibətə görə ölkə polisi 30-cu yerdə qərarlaşıb. İki il fərqlə 52-ci yerdən 30-cu yerə yüksəlmək böyük göstəricidir. Danılmaz faktdır ki, Azərbaycan polisinə inam və etimad günü-gündən artır. Polis həm ictimai təhlükəsizliyi təmin edir, eyni zamanda, kriminal durumun gərginləşməsinin qarşısını alan mühüm strukturdur. Polisin fəaliyyətində şəffaflıq müşahidə edilir. Azərbaycan polisi, yaşından, tutduğu vəzifədən asılı olmayaraq, hər kəsə isti münasibət sərgiləyir. Polis ən ağır vəziyyətdə olan insanlara köməklik göstərir".

*"Azərbaycan cəmiyyətinin polisə inam və etimadının artması beynəlxalq təşkilatların diqqətindən yayınmır"*

Həmsöhbətimiz onu da vurğuladı ki, vətəndaşlar bu gün daha arxayın və rahat şəkildə polisə müraciət edirlər. Əhali əmindir ki, polis onların ictimai təhlükəsizliyini lazımi şəkildə təmin edir. Ölkə əhalisinin polisə münasibəti beynəlxalq ekspertlərin diqqətindən yayınmır. Təbii ki, bu hal beynəlxalq hesabatlarda öz əksini tapır.

***Günel CƏLİLOVA***

# "Milli Şura" radikalları 19 oktyabr planları ilə yenə ölkəni qarşıdurmaya çəkmək yolu seçir

**Məlum olduğu kimi, Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) "Milli Şura"nın mitinqinin oktyabrın 19-da, saat 15:00-dan 17:00-dək Lökbatan qəsəbəsi, 28 May küçəsi, "Neftçi" idman klubu"nda keçirilməsinə icazə verib. "Milli Şura" təmsilçiləri isə bu qərarla razılaşmayaraq, mitinqi metronun 28 May stansiyasının çıxışında keçirməkdə israrlı olduqlarını diqqətə çatdırıblar.**



## *"...hamını icazəsiz mitinqə səsləmək çox ciddi xoşagəlməz proseslərə gətirib çıxara bilər"*

Bununla bağlı sosial şəbəkələrdə çağırışlar edirlər.

Görünən odur ki, "Milli Şura" məqsədyönlü şəkildə qarşıdurma yaratmaq, ölkədəki mövcud sabitliyi pozmaq istəyir. Bu gün dünyada geosiyasi münasibətlər gərgindir. Bir sıra ölkələrdə, o cümlədən, bizə yaxın olan regionlarda gərgin proseslər gedir. İndiki belə mürəkkəb dövrdə qanunsuz aksiyalara cəhd etmək sabitliyi pozmaq niyyətindən başqa bir şey deyil. Nəzərə almaq lazımdır ki, kütləvi məkanlarda aksiya keçirməklə, sadəcə olaraq, hərəkətdə olan insanları öz tərəfdarları kimi qələmə vermək istəyirlər. Dünyanın heç bir yerində heç bir mitinq, heç bir piket insanların hərəkət etdiyi, nəqliyyatın gur olduğu yerdə keçirilmir. O üzdən, bu, provokasiyadır.

Məsələyə münasibət bildirən "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti, hüquq müdafiəçisi Əlimməmməd Nuriyevin sözlərinə görə, icazəsiz aksiya keçirmək doğru deyil: "Azərbaycan Respublikasının "Sərbəst toplaşmaq haqqında" Qanununda aksiyaların keçirilməsi mexanizmləri dəqiq göstərilib. Bu mexanizmlər ondan ibarətdir ki, aksiya və mitinq keçirmək üçün müvafiq icra hakimiyyətinə müraciət etmək lazımdır. Eyni zamanda, kütləvi aksiya keçirilirsə, onun təhlükəsizliyini təmin etməklə bağlı müvafiq orqanlara müraciət etmək tələb olunur və müraciətə münasib qaydada cavab verilir. Bildiyimiz kimi, Bakı şəhərində 3 milyondan artıq əhali yaşayır. Bu baxımdan, paytaxtda mitinq keçirilməsinin əsas şərtlərindən biri həmin ərazidə təhlükəsizliyin təmin edilməsidir. Mitinqdə nə qədər adamın iştirak etməsi ilə bağlı məlumat göstərilməlidir ki, buna uyğun təhlükəsizlik qüvvələri prosesi həyata keçirə bilsinlər. Həmçinin, hansı şüarların səslənməsi barədə də əvvəlcədən məlumat verilməlidir. İndiki halda, hamını icazəsiz mitinqə səsləmək çox ciddi xoşagəlməz proseslərə gətirib çıxara bilər. Bu halda, mitinq iştirakçılarının, əhalinin təhlükəsizliyi təmin olunmalıdır. Nəqliyyatın hərəkətinə maneə törədilməməlidir. Bütün bunlar icra olunmalı prosesdir. Əks halda, xoşagəlməz mənzərə yarana bilər. Bir konstitusion hüququn həyata keçirilməsi digər konstitusion hüququn həyata keçirilməsinə mane olmamalıdır.

*"Nəticədə belə bir təşəbbüslə çıxış edən şəxslər məsuliyyətə cəlb olunacaqlar"*

Ən vacibi isə təhlükəsizlik hüququ ilə bağlı məsələlərdir. Yəni aksiya qanunvericiliyin tələblərinə uyğun olmalıdır. Əks halda, müvafiq olaraq məsuliyyət yaradacaq. Nəticədə belə bir təşəbbüslə çıxış edən şəxslər məsuliyyətə cəlb olunacaqlar".

***Vidadi ORDAHALLI***

**Azərbaycan və Rusiya arasında getdikcə daha dinamik şəkildə inkişaf edən əlaqələrdən Ermənistanın ciddi təşviş duyması artıq hamıya bəlli məsələ sayılır. Belə vəziyyətdə Ermənistanı qorxudan başlıca məqamlardan biri güclü Azərbaycan qarşısında tək qalmasıdır. Çünki Azərbaycanla yaxınlaşan Rusiya üçün Ermənistan tədricən arxa plana keçir.**

# Rusiya-Azərbaycan atom-nüvə əməkdaşlığı perspektivi və Ermənistanın narahatlığı - Paşinyanın bir niyyəti də puç olur...



Hadisələrin inkişafı qarşıdakı dövr ərzində Ermənistanın qeyd olunan xüsusda təşvişlərinin daha da artacağını göstərir. Bu arada Ermənistanı qorxudan başlıca məqamlardan biri "Rosatom" dövlət korporasiyasının Azərbaycanda atom elektrik stansiyasının (AES) tikintisində maraqlı olmasıdır. İrəvanda hesab olunur ki, bu plan reallaşsa, Azərbaycan Rusiya üçün daha qiymətli ölkəyə çevriləcək və bu da Ermənistan üçün müsbət heç nə vəd etmir. Xatırladaq ki, hələ oktyabrın əvvəlində Rusiya və Azərbaycan prezidentləri Vladimir Putin və İlham Əliyevin görüşlərindən sonra "Rosatom"un icraçı direktoru Aleksey Lixaçov maraqlı bir açıqlama ilə çıxış edərək, Azərbaycanda AES tikməkdə niyyətlərini ortaya qoymuşdu: "AES Azərbaycandan olan tərəfdaşımızın istədiyi növdə olacaq. Biz güclü stansiyanı təklif etmişik. Azərbaycanın spesifikası ondan ibarətdir ki, bu ölkədə istehlak artır. 2018-ci ildə Azərbaycanda istehlakçıların sərfiyyatı 14% artıb ki, bu da böyük rəqəmdir".

Energetika naziri Pərviz Şahbazov isə bu günlərdə məsələyə münasibət bildirərkən qeyd etdi ki, Azərbaycan Rusiya tərəfindən ölkədə atom elektrik stansiyasının tikintisi ilə bağlı irəli sürülən təklifi nəzərdən keçirir. Nazirin sözlərinə görə, Rusiya bu sahədə böyük təcrübəyə malikdir və bu ölkənin dünya üzrə bir çox analoji layihələri var: "Bizə də təklif olunub və Azərbaycan bu təklifi nəzərdən keçirir. Amma konkret bir şey demək hələ tezdir". Azərbaycanın hələ bu məsələni nəzərdən keçirdiyi bir vaxtda Ermənistanı artıq ciddi təlaş bürüyüb. Məsələn, erməni politoloq Haqik Hambaryan bildirib ki, son bir il yarımda erməni-rus əlaqələrini nəzərə alaraq demək olar ki, Rusiya bu addımla Ermənistan hakimiyyətinə hansısa mesajı göndərir: "Artıq biz bilirik ki, bizim strateji tərəfdaşımız Azərbaycanda atom stansiyası tikmək istəyir və buna qadirdir. Bu, Ermənistan hakimiyyətinə mesajdır, lakin hakimiyyətimiz onlara diplomatik mesajlar gələndə sevinir. Onlar bunu başa düşməyəcəklər və öz addımlarını davam etdirəcəklər". Digər

erməni siyasi şərhçi Akob Badalyan qeyd edib ki, Moskva Azərbaycana nüvə stansiyası təklif etməklə Ermənistanı pis vəziyyətə salır: "Azərbaycanla mümkün proqramın regional hərbi-siyasi balansla əlaqəsi şübhəsizdir. Buradakı problem odur ki, Azərbaycanda nüvə enerjisi texnologiyasına investisiya qoymaqla Rusiya Bakıya, sonradan Azərbaycana daha təhlükəli layihələrə çevirə biləcəyi bir resurs verməzmi? Hələ bu məsələdə Rusiyanın özünün Azərbaycana kömək edə biləcəyini düşünmək belə istəmirəm. Atom elektrik stansiyası silah deyil, ancaq müəyyən bir hərbi-siyasi amildir. Bakı Ermənistanın strateji müttəfiqi olan ölkənin köməyilə bundan faydalanırsa, bu zaman milyardlarla dollarlıq silah-sursatla bağlı suallar yaranır".

Baş verənlərə toxunan Aram Sarkisyan isə "1in.am" portalında yazır: "Azərbaycanda nüvə enerjisinin inkişafı məsələsi, həm Ermənistan-Azərbaycan münaqişəsi amilini, həm də hazırda Cənubi Qafqazda yalnız Ermənistandakı "Metsamor"da nüvə stansiyasının olmasını nəzərə alsaq, daha da siyasi əhəmiyyət kəsb edir. Bu kontekstdə Azərbaycanın nüvə enerjisini inkişaf etdirməklə hansı siyasi, geosiyasi problemləri həll etməyə çalışacağını müəyyən etmək lazımdır. Digər tərəfdən, Azərbaycan tərəfinə belə bir təklif verən Rusiyanın geosiyasi, iqtisadi, maliyyə və ya digər səbəbləri maraqlıdır. Bu maraqlar Ermənistanı daha çox arxa plana atır". Məsələ ilə bağlı Ermənistan Enerji Təhlükəsizliyi İnstitutunun prezidenti Vahe Davtyan bildirib ki, Azərbaycanda atom elektrik stansiyasının tikintisi ilə bağlı müzakirələr və söhbətlər 2000-ci illərin əvvəllərindən başlayıb: "Rosatom" rəhbərliyinin Putin-Əliyev görüşündən sonra verdiyi təklif olduqca gözlənilən və son hadisələrin ümumi məntiqinə uyğundur. Düzdür, hələlik konkret detallar yoxdur, lakin tərəflərin əhval-ruhiyyəsini və "Rosatom" rəhbərinin rəsmi açıqlamasını nəzərə alsaq, çox güman ki, 1200 MVt-a qədər böyük elektrik stansiyasının tikilməsindən söhbət gedir. Nüvə elektrik stansiyası layihəsinin həyata keçirilməsi hazırda həm iqtisadi, həm də geosiyasi baxımdan Azərbaycan üçün son dərəcə aktualdır.

Əlbəttə, bu məsələdə Azərbaycanda baş verənlərə diqqətlə yanaşmalıyıq. Niyə, ona görə ki, nüvə stansiyasının inşasından sonrakı addımın Azərbaycanda nüvə proqramlarının həyata keçirilməsi üçün müəyyən ambisiyaların formalaşması olacağı istisna edilməməlidir. Xüsusilə Azərbaycanla Pakistan arasında strateji, hərbi-texniki əməkdaşlığı nəzərə alaraq, bunu da istisna etməməliyik. Bildiyimiz kimi, nüvə silahına sahib olan Pakistan nüvə silahına malik ölkələrin təmsil olunduğu birliyə daxil deyil. İslamabadla Bakı arasında sıx hərbi-texniki əməkdaşlıq və fəal təcrübə mübadiləsi nəzərə alınsa, tərəflərin bir gün müəyyən addımlar atacağı da istisna edilməməlidir. Bu, istisna edilməməsi lazım olan başqa bir ssenaridir. Bu sahədə ümumi mozaika bundan ibarətdir". O, Rusiyanın burada ilk növbədə maliyyə məqsədləri güddüyünü bildirib:"Bir şeyi birmənalı şəkildə qeyd edək, Ermənistanda atom elektrik stansiyasının yeni bir blokunun inşası barədə danışıqlarda, burada Rusiya tərəfinə və "Rosatom" şirkətinə təkcə bu layihənin operatoru deyil, həm də maliyyə donoru kimi baxırıq. Təməl ssenaridə Rusiya tərəfi Ermənistanda yeni nüvə elektrik stansiyası qurması üçün lazımi vəsait ayırmalı olduğunu düşünür. Azərbaycana gəlincə, burada tamamilə fərqli bir vəziyyət var. Azərbaycan özü bunu maliyyələşdirməyə qadir olduğunu və nüvə elektrik stansiyası tikmək üçün ehtiyat fondlarından lazımi vəsaiti ayırmağa hazır olduğunu bəyan edir. Bu vəziyyətdə Rusiya da bu layihənin operatoru rolunda çıxış etməyə hazırlıq nümayiş etdirir. Özünü bu layihənin baş operatoru kimi təqdim edən "Rosatom", təbii olaraq, bu layihədən çox ciddi maliyyə dividendləri əldə edəcək. Bu durumda Ermənistan Rusiya üçün daha arxa plana düşəcək. Əvəzində Azərbaycan və Türkiyəyə marağın yüksəlməsini gözləmək olar". Bütün bu qeyd edilənlər fonunda Ermənistanın Rusiya-Azərbaycan işbirliyindən kifayət qədər əndişələndiyi aydın görünür. Düşmən ölkədə hesab olunur ki, bu hal Ermənistanın regionda təcridinin daha da dərinləşməsinə rəvac verəcək.

Onu da deyək ki, Paşinyanın 2018-ci ildə Rusiyaya səfər zamanı verdiyi "rus qardaşlar kömək etsə, "Metsamor"un söküntüsündən sonra yeni AES tikərik" kimi bəyanatı artıq arxivə atılır. Hər halda, Azərbaycanla AES söhbəti reallaşsa, Rusiyanın Ermənistanda yeni AES tikməyə marağı qalmayacaq.

***Nahid SALAYEV***

# Mətbuatı daxili çəkişmələrə alət kimi qoşmaq istəyən məmurlara ağır xəbərdarlıq...

*Azər Həsrət: "Nazirin, məmurun, hansısa vəzifəli şəxsin öz ətrafında media orqanı saxlamaq praktikasına son qoyulmalıdır"*

**Məlum olduğu kimi, oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında iqtisadi müşavirə keçirilib. Ölkə başçısı çıxışında cəmiyyəti narahat edən bir sıra ciddi məsələlərə toxunub və ölkəmizdə həyata keçirilən islahatlara qarşı kampaniya aparan qüvvələrin əməllərini ifşa edib.**

Prezident qeyd edib ki, bu gün iqtidarda olan bəziləri də islahatlara qarşı çıxış edirlər. O vurğulayıb ki, bu islahatlar onların şəxsi maraqlarına toxunur. "Onlar hər vəchlə bizim işimizə əngəl törətmək istəyirlər. İslahatlara meylli olan, yeni təfəkkürə malik kadrları qaralayırlar, o cümlədən, mətbuatda. Mətbuat, bir növ, daxili mübarizə növünə çevrilib. Bu, dözülməzdir. Mən indi dərinə getmək istəmirəm. Amma bildirməliyəm: bu, dözülməzdir, bir hökumətin bəzi üzvləri digər üzvləri tərəfindən şantaj edilir. Onlar ləkələnir. Prezidentin tapşırığı ilə onların apardığı islahatların üzərinə kölgə salınır. Dözülməz vəziyyətdir. Əgər kimsə hesab edir ki, biz bununla barışmalıyıq, səhv edir. Çünki islahatlara alternativ yoxdur. Kim bu yolun yolçusudursa, əlbəttə, işləyəcək. Amma kim buna qarşı çıxır və altdan-altdan bizim işimizə mane olmaq istəyir, əlbəttə ki, biz belə adamlarla bir yolun yolçusu ola bilmərik. Ona görə bir də demək istəyirəm ki, əhali də bilsin və hər kəs mənim sözümü eşitsin. Çox güclü siyasi iradə ortaya qoyulub. Biz Azərbaycanı müasir, sürətlə inkişaf edən, şəffaflığı öz siyasətində bayraq edən ölkə kimi görmək istəyirik və buna nail olacağıq. Heç kim bu işdə bizə mane ola bilməz" - deyə Prezident İlham Əliyev qeyd edib.

Respublikanın Əməkdar jurnalisti, tanınmış media eksperti Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, ölkə başçısının iradları haqlıdır və həqiqətən də bəzi media orqanlarından dövlətin həyata keçirdiyi islahatları hədəfə almaq aləti kimi istifadə edən məmurlar var: "Cənab Prezident yenə də bütün ictimaiyyətə göstərdi ki, o, ölkədə baş verən bütün prosesləri çox yaxından izləyir. Xüsusən də mətbuatla bağlı prosesləri çox yaxşı bilir və kimin hansı şəkildə mətbuatdan sui-istifadə etdiyindən xəbərdardır. Yəni Prezident vurğuladı ki, bizim kadrlara qarşı mətbuatdan istifadə olunur. Bu artıq, faktiki olaraq, köhnə qafalı və ölkədə aparılan islahatlara əngəl olmağa çalışan adamlara sonuncu xəbərdarlıq kimi qəbul edilə bilər. Cənab Prezident özü də qeyd etdi ki, bu davam edərsə, biz yollarımızı ayırmalı olacağıq. Düşünürəm ki, ölkəmizdə aparılan islahatlara, həyata keçirilən yeniliklərə əngəl olmağa çalışan insanları, xüsusən də cənab Prezidentin etimad göstərib irəli çəkdiyi kadrları bəzi media orqanları vasitəsilə sabotaj etməyə, gözdən salmağa çalışanlar ciddi şəkildə düşünməlidirlər. Həqiqətən Azərbaycan insanı bu gün daha yaxşı yaşamağa layiqdir və bu onun haqqıdır. Azərbaycan Prezidenti də vətəndaşların rifah halının yüksəldilməsi üçün durmadan çalışır, sadəcə, köhnə təfəkkür sahibi olan bəzi şəxslər bu islahatları, bu addımları sobataj etməklə məşğuldurlar. Təəssüflər olsun ki, bunu da bəzi məmurlar əllərində saxladıqları media orqanları vasitəsilə həyata keçirirlər, eyni zamanda, sosial mediada saxladıqları troll ordusunu da bu məsələyə cəlb edirlər. Fikrimcə, bu məsələlər öz həllini tezliklə tapmalıdır və o şəxslər bir daha bu cür əməllərlə məşğul olmamalıdırlar. Ümumiyyətlə, nazirin, məmurun, hansısa vəzifəli şəxsin öz ətrafında media orqanı saxlamaq praktikasına son qoyulmalıdır. Azərbaycan dövlətinin media siyasətini Azərbaycan Respublikası Prezidentinin başçılığı altında Prezident Administrasiyası icra edir və təbii, dövlətin bu vacib sahəsinə hansısa vəzifəli şəxslər müdaxilə etməməlidirlər. Düşünürəm ki, cənab Prezident bu ismarıcı verdi və bundan da hər kəs öz hesabını götürəcək".

A.Həsrət bəzi məmurların bir-birinə qarşı şantaj vasitəsi, aləti seçdiyi bəzi media orqanlarının da müxtəlif məmurlara məxsus olduğunu qeyd etdi. Bu media orqanları ilə bağlı hər hansı bir problem baş verdikdə onun arxasından iri dövlət məmurları çıxır. "Bu qəzetlərin, media orqanlarının sahibləri məmurlar, hakimiyyətdə təmsil olunan vəzifəli şəxslərdir. Tutalım, Mətbuat Şurası tərəfindən həmin media orqanlarının adları "qara siyahı"ya salındıqda, həmin media orqanının arxasından böyük bir məmur, nazir çıxır. Bu tip adamlar cənab Prezidenti və komandasını hədəfə alırlar. Azərbaycan Prezidentinin siyasi komandası vahiddir və bu komandada kimsə ikitirəlik yaratmaq haqqında düşünməsin. İkincisi də vahid komandanın da vahid media siyasəti var.

Yəni Azərbaycan Prezidenti vahid media siyasəti yürüdür. O siyasətin də mərkəzində Azərbaycanda mətbuat azadlığının tam təmin edilməsi, jurnalistlərin azad, sərbəst şəkildə fəaliyyət göstərməsi dayanır. Bunu sobataj edən adamlar, sözsüz ki, cənab Prezidentə qarşı çıxan adamlardır. Düşünürəm ki, cənab Prezident də bundan narahatdır və bu ifadələri işlədib onlara öz ismarıcını göndərib. Hesab edirəm ki, yaxınlarda o tip adamlarla cənab Prezidentin yollarının ayrılacağının şahidi olacağıq" -deyə A.Həsrət bildirdi.



*"...sosial mediada saxladıqları troll ordusunu da bu məsələyə cəlb edirlər"*

***İradə SARIYEVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Azərbaycanın Qarabağda hərbi güc tətbiqi haqqı qəti qalib gəlir...



**ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona başlanan səfəri fonunda Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həlli ilə bağlı gözləntilər elə də yüksək deyil. Çünki Ermənistanın mövqeyi üzündən danışıqlar dalana dirənmiş vəziyyətdədir və bunun dəyişməsi üçün Minsk Qrupunun həmsədrləri tərəfindən işğalçıya qarşı hələ də hansısa real təzyiq mexanizmləri işə salınmır.**

Məhz bu fonda "İzvestiya" qəzetinə müsahibəsində Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovun aşağıdakı fikirləri də xüsusi diqqət cəlb edir: "Biz hələlik Ermənistan xarici işlər naziri ilə olan görüşlərdən nəticələr gözləyirik. Sonuncu dəfə bir ay əvvəl ABŞ-da görüşmüşük. Erməni həmkarımla sonuncu belə görüş Nyu-Yorkda Minsk Qrupunun iştirakı ilə baş tutdu. Düzünü desəm, mən ondan bir qədər məyus oldum. Əgər biz irəliyə getmək və bu mübahisənin həqiqətən siyasi həllini istəyiriksə, əlbəttə ki, mənim sevimli sözüm adlandırılan "substantiv danışıqlara" başlamaq lazımdır. Hansısa maddə olmalıdır ki, onun əsasında danışıqlar getsin". İndilikdə isə Ermənistanın qeyri-konstruktiv mövqeyi danışıqları dalana dirəyən başlıca faktor qismində qalmaqda davam edir.

Təbii ki, bütün bunlar konfliktin hərbi həllindən başqa heç nəyə xidmət etmir. Elə erməni tərəfində də səslənən fikirlərdən belə bəlli olur ki, hadisələrin inkişaf axarı yeni Qarabağ savaşını tətikləyir. Ermənistanın "Iragir.am" portalı yazır ki, burada türkiyənin Suriyanın şimalında başlatdığı hərbi əməliyyatlar da diqqət qaçmamalıdır və bu proses də Qarabağda savaşı körükləyən daha bir mühüm amildir: "Qarabağ məsələsində halisələrdahagərgin bir məcraya keçməmkədədir. Görünən budur ki, Azərbaycan bütün istiqamətlərdə mövqeyini gücləndirməyə çalışır. Bu xüsusda diqqət çəkən daha bir məqam budur ki, Türkiyə qoşunları Suriyada əməliyyat keçirdiyi bir vaxtda türk ölkələrinin prezidentləri Bakıda qardaşlaşma istiqamətində daha bir mühüm addım atdılar. Hərbi əməliyyatların qızğın dövründə, ABŞ-ın türk bürokratlarına qarşı sanksiyalar tətbiq etdiyi, Çin, Avropa Birliyi və digər ölkələrin atəşkəs tələb etdiyi bir vaxtda Ərdoğan Əliyevlə danışıq aparmaq üçün Bakıya gəldi.

Türkiyəni əsas olaraq üç dövlət - Azərbaycan, Qətər və Pakistan dəstəklədi. Cavabında, Türkiyə xarici işlər naziri Çavuşoğlu yenidən Qarabağın işğal olunmasını xatırladı. Əliyev Zəngəzurun Ermənistana verilməsinin Türk dünyasını parçalaması barədə danışdı. Ərdoğan isə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasına kömək edəcəyinə söz verdi.

Bakıda bu durumda tezliklə antitrerror əməliyyatının Qarabağda davam etdirilməsi barədə danışırlar. Yada salaq ki, son onillikdə Azərbaycanda belə əhvali-ruhiyyə, ən azı, iki dəfə olub. 2008-ci ildə Gürcüstan Abxaziyanı qaytarmağa cəhd edərkən Azərbaycanda səbrsizliklə Gürcüstanın ərazi bütövlüyünün bərpa olunmasını gözləyirdilər. Azərbaycan qoşunlarının Qarabağ sərhədlərinə doğru hərəkət etməsi, Gürcüstanın rus qoşunlarının Ermənistana gedən yolunu kəsməsi halında ordunun müdaxiləyə hazır olması haqqında danışırdılar. Eyni gözləntilər 2014-cü ildə, Rusiya Krımı ilhaq edərkən də vardı. Amma artıq vəziyyət dəyişib. Azərbaycan Rusiya faktorunu neytrallaşdıra bilib. İndi Bakı diqqətini Türkiyənin Suriya əməliyyatına yönəldib. Bakıda Türkiyədən nə gözləyirlər? Faktiki, Ankaranın əməliyyatı Suriyanın ərazi bütövlüyünün qorunub saxlanmasına, Yaxın Şərqdə kürd dövlətinin yaranmasının və yüzillik sərhədlərin dağılmasının qarşısının alınmasına yönəlib. Suriyada baş verənlərin sarsıntıları, həqiqətən, Qarbağadək gəlib çatacaq. Bu durumda mümkün yeni savaşda Ermənistanı, yəqin ki, müsbət heç nə gözləməyəcək. Hər halda, ortada acı aprel təcrübəsi var. Bakı artıq nəticəyə güc müstəvisində nail olmağa daha çox can atır və geosiyasi şəraiti öz lehinə dəyişmək fonunda gecikmək də istəmir".

Qeyd edilənlərdən aydın görünür ki, Azərbaycanın Qarabağda mümkün antiterror əməliyyatlarına başlama ehtimalının getdikcə artması Ermənistanda böyük əndişə yaradır. Düşmən ölkədə hesab edilir ki, Türkiyənin Suriya əməliyyatları bu proses üçün əlavə münbit şərait yaradır. Elə bu səbəbdəndir ki, Ermənistan birmənalı şəkildə Türkiyənin antiterror əməliyyatlarına qarşı çıxır. Hətta Ermənistanda nəşr olunan "Qraparak" qəzeti məlumat yayıb ki, ABŞ-ın Ermənistandakı səfirliyi qarşısında PKK, YPG və Suriya Demokratik Qüvvələri terror təşkilatlarına dəstək aksiyası təşkil olunub. Aksiyada Suriyada kürd terror təşkilatlarına dəstəyi dayandıran ABŞ hökumətinə etiraz edilməsi də diqqətdən yayınmır: "ABŞ əvvəlcə kürdlərə dəstək verəcəyini söylədi, amma indi amerikalılar kürdlərə dəstəyi geri çəkib onların məhv olunmasına göz yumur". Ermənistan Xarici İşlər Nazirliyi bundan əvvəl bəyanat yayaraq, Suriyada antiterror əməliyyatları keçirən Türkiyəyə etiraz edib. Azərbaycan məsələləri üzrə erməni ekspert Anjela Elibekova isə qeyd edir ki, Azərbaycan müharibəyə hazırlaşır və Türkiyənin Suriyada əməliyyatları bu savaşın başlanmasını tezləşdirə bilər: "Azərbaycanın hərbi bəyanatları yeni deyil, burada problem odur ki, mütəmadi olaraq sözdən işə keçirlər". O qeyd edib ki, Azərbaycan son zamanlar çoxsaylı hərbi təlimlər, Türkiyə ilə müxtəlif proqramlar, o cümlədən silah alınması prosesləri həyata keçirir: "Azərbaycan müharibəyə hazırlaşır, onlar bunu gizlətmirlər və eşitməsi üçün bütün dünyaya bəyanat verirlər. Bunun nə zaman baş verəcəyi isə başqa məsələdir, biz Azərbaycanda həm daxili, həm də xarici siyasətdə vəziyyətin inkişafının necə olduğunu təhlil edə bilərik. Hazırda görünən budur ki, Azərbaycan Qarabağ məsələsinə görə daha tez savaşa başlaya bilər. Bunu Türkiyənin son hərbi əməliyyatları da tətikləyir". Anjela Elibekovanın sözlərinə görə, Aşqabadda Əliyev-Paşinyan görüşü müəyyən məqamlara görə diqqət çəksə də, ictimaiyyət 2 saat ərzində Qarabağ məsələsi ətrafında nəyin müzakirə edilməsindən xəbərsizdir. O, istənilən halda, Azərbaycanın Qarabağ üzərində nəzarəti geri qaytarmaqda israrlı olduğunu da vurğulayır. İndiki halda isə bunun ən optimal yolu Bakının antiterror əməliyyatlarına start verməsidir.

O da faktdır ki, Azərbaycan öz ərazisində, Qarabağda antiterror əməliyyatı aparacaqsa, buna nə Ermənistan, nə də hər hansı böyük dövlət və ya təşkilat maneə yarada biləcək. Politoloq İlqar Vəlizadə bu xüsusda qeyd edir: "Azərbaycanın bu cür əməliyyatı həyata keçirmək üçün hər hansı dövlətdən razılıq almasına ehtiyac yoxdur. Çünki biz öz ərazilərimizdə bunu həyata keçirəcəyik". Digər ekspertlər də bildirir ki, burada Azərbaycanın əsas məqsədi beynəlxalq hüquq normaları çərçivəsində ərazi bütövlüyünü bərpa etməkdir. İndiki geosiyasi durum, düşmən ölkədə hökm sürən hərc-mərclik, ordumuzun ən güclü 50 ordu sırasında qərarlaşması antiterror əməliyyatları həyata keçirərək torpaqlarımızı azad etməyə imkan verir. Bu sahədə Türkiyə artıq real nümunə də yaradır. Baş verənlər göstərir ki, hazırda beynəxalq ictimaiyyət də ancaq güc faktorunu qəbul edir. Bu, işğalçı Ermənistana da şamil olunur. Bu fonda Dağlıq Qarabağda antiterror əməliyyatları ilə Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi artıq zərurət kimi çıxış edir.

Rus ekspert Stanislav Tarasov isə qeyd edir ki, Ermənistanın anlaşılmaz xarici siyasət yürütməsi və YPG-yə dəstək verməsi Moskva üçün qəbuledilməz haldır və bu fonda Kreml Bakının Qarabağda əməliyyatlara başlamasına maneə yaratmayacaq: "Digər tərəfdən, Türkiyənin Suriya əməliyyatları Bakını Qarabağda əməliyyatlara stimullaşdıran əlavə hal qismində çıxış edir və Azərbaycan cəmiyyətində buna tələb var. Düzdür, Suriyada yaranmış vəziyyət də standart deyil, proqnozlar etmək tezdir. Buna görə də edilən bütün proqnozlar zamanın sınağından keçməlidir".

Burada məsələnin digər maraqlı məqamları da var ki, o da indiki halda Ermənistanı ciddi şəkildə narahat edir. Belə ki, Ankaranın Suriyada öz hədəflərinə çatması burada kürd-erməni terroru üçün ciddi zərbə olacaq. Belə vəziyyətdə onların bir qisminin yenidən işğal altındakı ərazilərə üz tutması gözlənir və bu durumda Azərbaycan antiterror əməliyyatlarında Ankaradan istənilən yardımı da ala bilər. Ermənistanı ən çox narahat edən məqamlardan biri də əslində budur. Məsələnin bu tərəfinə diqqət çəkən türk politoloq Engin Özer qeyd edir: "Qarabağda kürd terror qruplarının olması yeni xəbər deyil. Daha əvvəl də Türkiyənin xüsusi xidmət orqanları bununla bağlı ictimaiyyətə məlumat verib, həmçinin narahatlıq da bildiriblər. Terror təşkilatları Qarabağı ideoloji təlim və məşqlər üçün istifadə edir. Türkiyənin Suriyanın şimalı və İraqda keçirdiyi antiterror əməliyyatları zamanı terrorçuların bu regiondakı mövqeləri zəifləyib. Terrorçuların yenidən Qarabağa üz tutması böyük ehtimaldır və bu şəraitdə Azərbaycanın başlayacağı əməliyyatlara Türkiyənin istənilən dəstəyi verməsi mümkündür". Beləliklə, qeyd edilənlər Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi üçün yeni bir şəraitin yarandığını göstərir. Bu şərait Qarabağda istənilən an antiterror əməliyyatlarına start verilməsini istisna etmir. Bu durumda Ermənistanın proseslərin qeyd olunan səpkidə inkişafının qarşısını ala bilmək üçün hansısa ciddi müqavimət imkanları yoxdur. Bakı isə düşmən ölkəyə fikirləşmək üçün indiyə qədər vaxt verib və görünən budur ki, Ermənistan lazımi nəticələr çıxarmadığından, hərbi əməliyyatların başlanması da qaçılmaz olacaq.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Respublikamızda həyata keçirilən sosial-iqtisadi siyasətin başlıca məqsədlərindən biri vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi və əhalinin sosial müdafiəsinin təmin edilməsidir. Son bir neçə ildə iqtisadiyyatın inkişafında əldə edilən nailiyyətlər bu məqsədin uğurla reallaşmasına şərait yaradıb.**

# Prezident ünvanlı yardım alan ailələrin sayının artırılmasına yol açdı...



## *Flora Qasımova: "Ünvanlı sosial yardım alacaq aztəminatlı ailələrin sayının artması sevindiricidir"*

*"Azərbaycan iqtisadiyyatı inkişaf etdikcə, əhalinin rifahının yaxşılaşdırılması istiqamətində də müvafiq addımlar atılır"*

Bütün kateqoriyalardan olan vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, əhalinin aztəminatlı təbəqələrinə kömək göstərilməsi, yoxsulluğun aradan qaldırılması Azərbaycanda dövlət siyasətinin başlıca istiqamətlərindən biridir. Prezident İlham Əliyevin sosial siyasətinin fəlsəfəsi də ondan ibarətdir ki, ölkədə aztəminatlı, yoxsul insan olmasın. Fərəhli haldır ki, iqtisadiyyatda həyata keçirilən köklü islahatlar bu sferada dinamik və davamlı inkişafı təmin etməklə bərabər, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına geniş imkanlar açıb. İqtisadi inkişaf maliyyə imkanlarının çoxalması, adekvat olaraq, xalqın sosial rifahının, güzəranının daha da yaxşılaşdırılması, sosial problemlərin həlli istiqamətində atılan addımların real nəticələri ilə müşayiət olunmaqdadır.

Prezident İlham Əliyevin sosial sahəyə diqqət və qayğısının nəticəsidir ki, son illər dövlət büdcəsi təsdiq olunarkən ali maliyyə sənədində sosialyönümlülük prioritet olaraq qalır. Məhz dövlət başçısının qətiyyətli siyasəti sayəsində ölkədə yoxsulluğun səviyyəsi minimuma endirilib.

Məlumdur ki, yoxsulluğun aradan qaldırılması üçün aztəminatlı ailələrə ünvanlı sosial yardım verilir. Maddi durumu zəif olan ailələrin rifah halının yüksəlməsi üçün ünvanlı sosial yardım alan ailələrin sayı artacaq. Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 15-də keçirilən iqtisadi müşavirədə çıxışı zamanı deyib.

Prezident qeyd edib ki, sosial müdafiə sahəsində Azərbaycan dünya miqyasında nümunəvi ölkədir: "Bizim sosial siyasətimiz birmənalıdır. Dəfələrlə demişəm ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Sosial müdafiə sahəsində Azərbaycan, hesab edirəm ki, dünya miqyasında nümunəvi ölkədir. Həm minimum əməkhaqqının, pensiyaların qaldırılması, özünəməşğulluq proqramının geniş vüsət alması, - bu il on mindən çox insan bu proqramla əhatə olunacaq, - ünvanlı sosial yardımı alanların sayı artır və əmək və əhalinin sosial müdafiəsi nazirinin qarşısında mən vəzifə qoydum ki, biz bu kateqoriyadan olan insanlara daha geniş həcmdə yardım göstərək. İndi orta hesabla 200 manatdan çox hər bir ailə alır. O, ailələrin sayı artmalıdır. Belə vəzifə qoyulub. Əlbəttə ki, əsas vəzifəmiz iqtisadi inkişafı şərtləndirən islahatları dərinləşdirməkdir".

Ünvanlı sosial yardım alacaq ailələrin sayının artmasının əhəmiyyəti barəsində danışan millət vəkili Flora Qasımova "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Prezident İlham Əliyev dəfələrlə öz çıxışında deyib ki, ölkə siyasətinin mərkəzində Azərbaycan xalqı dayanır. Danılmaz faktdır ki, İlham Əliyev ölkə əhalisinin rifah halının yaxşılaşdırılması istiqamətində mühüm işlər görür. Aztəminatlı ailələrin maddi durumunun inkişaf etməsi üçün həmin ailələrə dəstək olmaq məqsədilə ünvanlı sosial yardım verilir: "Məlumdur ki, cari il ərzində həyata keçirilən sosial islahatlar paketi ölkədə vətəndaşa nə qədər dəyər verildiyinin aydın göstəricisidir. Bu islahatlar nəticəsində 4 milyon 200 mindən çox insanın maddi vəziyyəti yaxşılaşdı, pensiyalar, əməkhaqları, müavinətlər artırıldı. Azərbaycanda minimum əməkhaqqının bir ildə iki dəfə artırılması nəticəsində ölkəmiz bu göstərici üzrə MDB-də 1-ci yerdə qərarlaşdı".

Xanım millət vəkili vurğuladı ki, əhalinin sosial müdafiəsi sahəsində həyata keçirilən bu islahatlar dünyaya nümunə ola bilər. Azərbaycan iqtisadiyyatı inkişaf etdikcə, əhalinin rifahının yaxşılaşdırılması istiqamətində də müvafiq addımlar atılır. Azərbaycan dövlət büdcəsinin sosialyönümlü olması da bunu bir daha təsdiq edir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, 2020-ci ilin dövlət büdcəsi həm sosial, həm də investisiyayönümlü olacaq.

Həmsöhbətimizin sözlərinə görə, ünvanlı sosial yardım alacaq aztəminatlı ailələrin sayının artması sevindiricidir.

***Günel CƏLİLOVA***

---

**Azərbaycanda qeyri-neft sənayesinin inkişafına xüsusi diqqət yetirilir. Qeyri-neft sektorunun və aqrar sahənin inkişafı, faydalılığı istiqamətində dövlət tərəfindən böyük işlər görülür. Bunun nəticəsidir ki, ölkəmizdə bu sahələr artıq gəlirli və əlverişli sahələrə çevrilib.**

# Qeyri-neft sənayesində 15, kənd təsərrüfatında 7 faiz artım nəyin hesabına əldə olunub?



## *Aydın Hüseynov: "...bu nəticənin əldə olunmasında aparılan fundamental islahatlar ciddi rol oynayıb"*

*"Qeyri-neft sənayemizdə 15, kənd təsərrüfatında 7 faiz artımın baş verməsinin digər səbəbi də ölkə başçısının bu sahələrə xüsusi diqqət yetirməsidir"*

Prezident İlham Əliyevin yanında keçirilən iqtisadi müşavirədə ölkə başçısı qeyri-neft sənayesi və kənd təsərrüfatı sahəsində artım olduğunu qeyd edib: "...Yenə də qeyri-neft sənayesi sahəsində yüksək göstəricilər mövcuddur. Beləliklə, qeyri-neft sənayemiz 15 faizdən çox artıb. Bu onu göstərir ki, son illərdə aparılan islahatlar, xüsusilə qeyri-neft sektorunun inkişafı ilə bağlı atılan addımlar öz bəhrəsini verir. Deyə bilərəm ki, qeyri-neft sənayemizin 15 faizdən çox artması dünya miqyasında rekord göstərici hesab oluna bilər.

Bununla bərabər, bildiyiniz kimi, son illərdə kənd təsərrüfatına böyük investisiyalar qoyulmuşdur. Kənd təsərrüfatının inkişafı prioritet sahə kimi müəyyən edilmişdir. Mən, eyni zamanda, əvvəlki illərdə bir qədər təəccüblənirdim ki, nə üçün bu qədər investisiyaların müqabilində, bu qədər dəstəyin, subsidiyaların, güzəştli şərtlərlə verilmiş kreditlərin olduğu bir zamanda kənd təsərrüfatında artım 2-3 faiz idi. Ancaq hazırda bu sahədə də ciddi irəliləyiş müşahidə olunur. Beləliklə, kənd təsərrüfatı doqquz ayda 7 faizdən çox artmışdır".

Qeyri-neft sənayemizdə 15, kənd təsərrüfatında 7 faiz artım nəyin hesabına əldə olunub?

Bu sahələrdə artımın səbəblərini şərh edən millət vəkili, tanınmış iqtisadçı Aydın Hüseynov "Bakı-Xəbər"ə bildirdi ki, 2016-cı ildə Prezident İlham Əliyevin sərəncamı ilə strateji yol xəritəsi təsdiqlənib: "Strateji yol xəritəsinin ən başlıca məqsədi qeyri-neft sektorunun şaxələndirilməsi və inkişaf etdirilməsi idi. İkincisi, bu nəticənin əldə olunmasında aparılan fundamental islahatlar ciddi rol oynayıb. "Doing Business" hesabatında da Azərbaycan dünyanın ən 20 aparıcı islahatçı ölkəsi sırasına daxil olub.

Qeyri-neft sənayemizdə 15, kənd təsərrüfatında 7 faiz artımın baş verməsinin digər səbəbi də ölkə başçısının bu sahələrə xüsusi diqqət yetirməsidir. Xüsusilə də kənd təsərrüfatında stimullaşdırıcı tədbirlərin həyata keçirilməsinin, maliyyə əminamanlığının təmin edilməsinin nəticəsidir ki, qeyri-neft sektorunun sənaye sahəsində, eyni zamanda da kənd təsərrüfatında bu kimi nailiyyətlər əldə olunub".

***İradə SARIYEVA***

**"Bank sektoru bizdə iqtisadiyyatın artımına, iqtisadiyyatın real sektorunun artımına o qədər də kömək göstərmir və son illərdə yenə də istehlak kreditlərinin həcmi artır. Mən əvvəlki illərdə bunu demişəm ki, bizim portfelimizdə istehlak kreditləri üstünlük təşkil edir və bank sektorunun böhranının səbəblərindən biri də məhz o idi.**

# Prezident banklar barədə ictimai rəyin ən həssas məqamını tutdu - banklar əhalini kütləvi şəkildə hakimiyyətdən narazı salmaqla məşğuldur...




## *Əli Əlirzayev: "Bankların yenə də istehlak kreditlərinə önəm verməsi təəssüf doğurur"*

İndi də mənə məlumat verilir ki, yenə də bu meyllər artır, iqtisadiyyatın real sektoruna yox, yenə də istehlaka, yəni istehlak mallarının alınmasına kreditlər verilir".

Bunu Prezident İlham Əliyev oktyabrın 15-də keçirdiyi iqtisadi müşavirədə deyib. Prezident qeyd edib ki, bu davam edərsə, yenə də bir neçə ildən sonra xoşagəlməz problemlərlə üzləşə bilərik: "Ona görə bütün bu məsələləri gərək ümumiləşdirib, təhlil edib və bir qərara gələsiniz ki, bütün alətlər - bank sektoru, Sahibkarlığın İnkişafı Fondu, dövlət investisiya xərcləri bir məqsədi güdməlidir - məşğulluğun artırılması və qeyri-neft sektorunun artımı".

Həqiqətən də bankların fəaliyyəti qənaətbəxş deyil. Bu gün ölkədəki kommersiya banklarının apardığı yanlış kredit siyasəti yeni problemlərin yaranmasına rəvac verir. Məsələ ondadır ki, banklar, əvvəlki kimi, kreditləri yüksək faizlərlə verirlər. Bu zaman həm istehlak, həm də digər məqsədlər üçün kredit götürən zaman əhali bir sıra problemlərlə üzləşir. Faizlərin yüksək olması səbəbindən kreditlərin qaytarılması zamanı ciddi problemlər yaranır. Yüksək faiz üzündən bir çoxu kredit götürə bilmir. Dəfələrlə ölkə Prezidentinin, Mərkəzi Bankın çağırışlarına rəğmən, kommersiya bankları real sektora kredit verməkdə maraqlı deyillər. Banklar yalnız istehlak kreditlərinin verilməsinə üstünlük verirlər. Yaxın keçmişdə bunun necə ciddi fəsadlar yaratdığını hamı gördü. Yaranan problemli kreditlər üzündən bir çoxu müflis oldu, intihar etdi. Dövlətin problemli kreditlərlə bağlı qərarı olmasaydı, o zaman daha çox insan əmlakından, canından olardı. Ancaq, təəssüflər olsun ki, banklar problemli kreditlərin yaratdığı ağır fəsadlardan nəticə çıxarmadılar. Yenə də istehlak kreditlərinə üstünlük verərək növbəti problemlərin yaranmasına zəmin yaradırlar. Ümumilikdə, banklar hər fürsətdə əhalini kütləvi şəkildə hakimiyyətdən narazı salmağa çalışırlar. İstəyirlər ki, əhali arasında narazılıq artsın. Hökumət problemli kreditlərin böyük hissəsini öz üzərinə götürdü. Müşahidələr göstərdi ki, kompensasiyaların verilməsi zamanı əhali ciddi çətinliklərlə üzləşdi. Günlərlə növbə tutdular, get-gələ salındı və s. Bir növ, banklar məqsədyönlü şəkildə əhalini hökumətdən narazı salmağa çalışırlar. Yeri gəlmişkən onu da qeyd edək ki, bu gün əhalinin ən çox narazı olduğu bank "Unibank"dır. Bu bankla bağlı cəmiyyətdə çox böyük narazılıq var.

*"Nə qədər ki, banklar tələblərə uyğun fəaliyyət göstərmirlər, o zaman bənzər problemlər yenidən təkrarlana bilər"*

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən iqtisadçı-alim Əli Əlirzayevin sözlərinə görə, bankların yenə də istehlak kreditlərinə önəm verməsi təəssüf doğurur: "Bu cür yanaşma ölkə iqtisadiyyatının, sahibkarlığın inkişafına xidmət etmir. Banklar bu məsələlərdə yalnız öz maraqlarından çıxış edirlər. Baxmırlar ki, verilən kredit təyinatına görə istifadə edilir, yoxsa digər məqsədlərə görə. Bunu düşünmürlər. Əslində, banklar 5-6 aydan sonra yoxlama aparmalıdırlar ki, kredit necə istifadə edilir. Bankların məqsədi odur ki, tez və rahat vasitələrlə daha çox qazansınlar. Onları düşündürmür ki, yüksək faizlə verilən istehlak kreditini vətəndaş necə qaytaracaq. Nəticədə vətəndaş götürdüyü krediti qaytara bilmir. Arada zamin duranlar problemlə üzləşir və bu digər narazılıqlara yol açır. Bu gün ən çox real sektorun, kiçik və orta sahibkarların kreditə ehtiyacı var. Ancaq sözügedən sektora kredit verilmir. Min bir bəhanə ilə banklar bundan yayınırlar. Nə qədər ki, banklar tələblərə uyğun fəaliyyət göstərmirlər, o zaman bənzər problemlər yenidən təkrarlana bilər".

***Vidadi ORDAHALLI***

**"Vergi orqanları, digər hüquq-mühafizə orqanları bu tipli dırnaqarası sahibkarlara qarşı çox ciddi tədbirlər görməlidirlər. Həmin sahibkarlar da bilməlidirlər ki, vergiləri ödəmək onların borcudur. Onlardan heç bir başqa ödəniş tələb oluna bilməz". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 15-də keçirilən iqtisadi müşavirədə deyib.**

# Vergidən iri məbləğdə yayınan şirkətlərin "nəfəsini kəsəcəklər"



Prezident çıxışı zamanı vergidən yayınan sahibkarlar haqqında bunları deyib: "Mən bütün qurumlar qarşısında bu vəzifəni qoydum, maksimum şəffaflıq, dürüstlük olmalıdır, rüşvətxorluğa, korrupsiyaya son qoyulmalıdır. Ancaq sahibkarlar dövlət vergisini tam şəkildə ödəməlidirlər. Biz bu vergilər hesabına sosial layihələri icra edirik, vergilər hesabına köçkünləri yerləşdiririk, vergilər hesabına ordumuzu gücləndiririk. Ona görə də vergini ödəməyən cinayət məsuliyyətinə cəlb edilməlidir. Bir çox hallarda eşidirik ki, bizdə standartlar, meyarlar Avropa standartlarına uyğun olmalıdır. Avropa ölkələrində vergisini ödəməyənə hansı cəza verilirsə, biz də onlardan nümunə götürməliyik. Ona görə vergidən yayınmaq çox ciddi nəticələrə gətirib çıxarmalıdır. Mən bütün aidiyyəti qurumlara bir daha bu tapşırığı verirəm".

Dövlət vergisini tam şəkildə ödəməyən sahibkarların qanun çərçivəsində cəzalandırılmasını ekspertlər də müsbət dəyərləndirirlər.

*Musa Quliyev: "Sahibkarlar da gərək vicdanlı davransın, dövlətin vergisini vaxtlı-vaxtında ödəsinlər"*

Millət vəkili Musa Quliyev bildirdi ki, vergidən yayınma çox ciddi məsələdir: "Prezident sahibkarlara birbaşa öz tövsiyə və tapşırıqlarını verdi. Hökumət sahibkarların inkişafına hər zaman dəstək verir. Bundan sonra da yardım edəcək. Sahibkarlar da gərək vicdanlı davransın, dövlətin vergisini vaxtlı-vaxtında ödəsinlər. Dövlətin büdcəsi ən çox vergidən formalaşır. Çünki formalaşan büdcə əsasında biz sosial siyasətimizi formalaşdırırıq. Həssas təbəqənin vəziyyətini yaxşılaşdırırıq".

Millət vəkilinin sözlərinə görə, korrupsiya və rüşvətxorluqla mübarizə gedir və Prezidentin müşavirədəki çıxışından sonra bu sahədə mübarizə daha da gücləndiriləcək: "Hesab edirəm ki, müşavirədə Prezident doğru söylədi ki, ictimaiyyət də bu məsələdə aktiv olmalıdır".

*Fikrət Yusifov: "Qərb ölkələrində vergidən yayınanlara hansı cəzalar tətbiq olunursa, eyni hal bizdə də tətbiq olunmalıdır"*

İqtisadçı-ekspert Fikrət Yusifov qeyd etdi ki, Avropa ölkələrinin qanunvericiliyində vergidən yayınmaqla bağlı ciddi cəzalar nəzərdə tutulur. Ümumiyyətlə, vergidən yayınmaq ən ağır cinayətlərdən biri hesab olunur: "Oktyabrın 15-də keçirilən iqtisadi müşavirədə Prezident İlham Əliyev də bu məsələyə xüsusi olaraq toxundu. Məlumdur ki, cari ilin əvvəlindən etibarən iş adamlarına, sahibkarlara vergi güzəştləri tətbiq olunub. Buna baxmayaraq, vergidən yayınan sahibkarlar var. Dövlətin sahibkarlıqla məşğul olanlara şərait yaratmasına baxmayaraq, onlar bu güzəştdən istifadə edib vergidən yayınırlar. Qanunvericilikdə vergidən yayınanlarla bağlı cəzalar sərtləşdirilməlidir. Qərb ölkələrində vergidən yayınanlara hansı cəzalar tətbiq olunursa, eyni hal bizdə də tətbiq olunmalıdır. O zaman iş adamları, sahibkarlar dövlətin vergisini ödəməkdən yayınmaz".

***Günel CƏLİLOVA***

# Nazir şagirdlərin elektron yerdəyişməsi ilə bağlı narazılıqlara görə direktorlara xəbərdarlıq edib



**Azərbaycanda şagirdlərin elektron yerdəyişməsi sisteminin tətbiqinə başlanmasından sonrakı birinci həftədə sistemlə bağlı bir çox müraciətlərin olduğunu gördük.**

"Trend"in məlumatına görə, bunu Təhsil naziri Ceyhun Bayramov deyib.

Onun sözlərinə görə, elektron sistem mövcud olmasaydı, şagirdlərin yerdəyişməsi ilə bağlı narazılıqların həcmini müəyyən etmək olmazdı.

C.Bayramov əlavə edib ki, şagirdlərin yerdəyişməsi elektronlaşdırılmamışdan əvvəl meydana çıxan narazılıq yalnız Təhsil Nazirliyinə şikayət daxil olduqda aşkara çıxır: "Bəzən bu problemlərlə üzləşənlər müraciət etmirlər və buna görə də real vəziyyətlə bağlı məlumatımız olmur. Elektronlaşdırılmadan sonra biz insanların problemlərini bilib, həll yollarını müzakirə edə bildik. Statistika bizə göstərdi ki, həll olunmayan və yaxud həlli gecikən məsələlərin sayı ümumi müraciətlərin sayının 2 faizini təşkil edib ki, bu da direktorların səhlənkarlığı ucbatından baş verib. Drektor bu işi nəzarətə götürmədən onu texniki işçisinə həvalə edib, o da vəzifəsini düzgün başa düşməyib və ona görə də ləngimələr olub. Onlara xəbərdarlıq olundu və məsələ öz həllini tapdı.

Elektron sistem bizə imkan verir ki, məsələnin mahiyyətini qısa müddətdə görə bilək. Sistemdə bir sıra təkmilləşdirmələr etdik. Sistem elektron olduğundan burada insan müdaxiləsindən söhbət gedə bilməz".

# Fransada Naxçıvanla bağlı təqdimat...

**NUHÇIXAN xəbər verir ki, Parisdə Azərbaycan-Fransa regionlararası əməkdaşlığın inkişaf etdirilməsi üzrə İdarəetmə Komitəsinin iclası keçirilib. İclasda Naxçıvanla bağlı ayrıca təqdimat da olub.**



Fransadakı səfirliyimizin Mədəniyyət Mərkəzində keçirilən Azərbaycan-Fransa regionlararası əməkdaşlığın inkişaf etdirilməsi üzrə İdarəetmə Komitəsinin 1-ci iclasında Naxçıvan da təmsil olunub. İclasda hər iki ölkədən Komitənin həmsədrləri, səfirləri, diplomatları, Naxçıvan Muxtar Respublikasının nümayəndəsi, eləcə də qardaşlaşmış şəhərlərin mer və mer müavinləri iştirak edib.

İclasda yeni qardaşlaşacaq şəhərlərdən söz açılıb. Bakı şəhərində Naxçıvan Muxtar Respublikası daimi nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov Naxçıvan haqqında ətraflı məlumat verərək, onun Nuhun vətəni, bəşəriyyətin beşiyi olduğunu bildirib. Naxçıvanın tarixindən, coğrafiyasından danışaraq, onun antik və orta əsrlər dövrü maddi-mədəniyyət nümunələri və tarixi abidələrlə - ilk insanların yaşadığı mağaralar, qədim yaşayış yerləri, möhtəşəm qalalar, xatirə memarlığının ən mükəmməl nümunələri olan türbələr və təkrarsız təbiət abidələri ilə zəngin olduğunu diqqətə çatdırıb.

Bildirib ki, uzun illərdir Ermənistanın işğalçılıq siyasəti nəticəsində blokada şəraitində yaşamasına baxmayaraq Naxçıvanda inkişafa nail olunub, enerji və ərzaq təhlükəsizliyi təmin edilibdir. Müasir infrastruktur yaradılıb. Geniş turizm potensialına toxunaraq, rəngarəng landşaftın, fauna və florasnın, mineral bulaqların, müalicə mərkəzlərinin, qədim tarixin, mədəniyyət və təbiət abidələrinin, mövcud sabitliyin, ekoloji cəhətdən təmiz qida məhsullarının turizmin bir çox növünün inkişafına zəmin yaratdığı vurğulanıb. Naxçıvandakı səhiyyə turizminin inkişafı sahəsində mövcud infrastrukturların Duzdağ Fizioterapiya Mərkəzi, Darıdağ Arsenli Su Müalicə və İstirahət Kompleksi, dərman bitkiləri, "Badamlı" və "Sirab" kimi təbii müalicəvi süfrə suları, eləcə də təktanrıçılıq abidəsi olan Əshabi-Kəhf hər il dünyanın müxtəlif ölkələrindən yüz minlərlə turisti cəlb edir.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Fransa arasında iqtisadi-ticarət, təhsil, mədəniyyət və elm sahələrində səmərəli əməkdaşlıqdan söz açan daimi nümayəndə Fransada keçirilmiş bır sıra beynəlxalq iqtisadi sərgilərdə Naxçıvan şirkətlərinin də iştirak etdiyini vurğulayıb.

Qeyd olunub ki, Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmuş, həmin il Azərbaycanın "Gənclər paytaxtı" seçilmişdir. Eyni zamanda 2018-ci ildə Naxçıvanda Avropa Günləri keçirilmiş, Fransanın Azərbaycandakı səfirliyinin əməkdaşları muxtar respublikada səfərdə olmuşlar.

Bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Fransa arasında iqtisadi-ticarət, təhsil, mədəniyyət və elm sahələrində səmərəli əməkdaşlıq vardır.

2006-cı ildən muxtar respublikada Azərbaycan-Fransa beynəlxalq arxeoloji ekspedisiyası fəaliyyət göstərir. Aparılan araşdırmaların nəticələri müxtəlif beynəlxalq jurnal və kitablarda nəşr edilib.

Hazırda Naxçıvan Dövlət Universitetində Fransız dili ixtisası üzrə ali təhsilli kadrlar hazırlanır, muxtar respublikanın 50-ə yaxın orta məktəbində isə Fransız dili fənni tədris olunur. Hər il Naxçıvan Dövlət Universitetində Fransız dili müəllimliyi ixtisası üzrə təhsil alan tələbələrin iştirakı ilə "Frankafoniya günləri" keçirilir.

Bəxtiyar Əsgərov qeyd edib ki, "Azərbaycan-Fransa birgə arxeoloji qazıntıların 10 illiyi" adlı sərgi Bakı və Lyon şəhərlərində keçirilib, sərgidə Naxçıvanda aparılan arxeoloji qazıntılar zamanı tapılan əşyalar nümayiş olunub.

Naxçıvan şəhəri ilə Fransanın Möntrö-Fot-Yon şəhəri arasında imzalanması nəzərdə tutulan Dostluq və Əməkdaşlıq Xartiyasının əlaqələrin inkişafında yeni mərhələ kimi dəyərləndirən Bəxtiyar Əsgərov fransız tərəfini Naxçıvana dəvət edib.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının Bakıdakı daimi nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov həmin tədbir çərçivəsində Fransanın Möntrö-Fot-Yon şəhərinin meri Ceyms Şeron ilə də görüşüb. Ceyms Şeron Bəxtiyar Əsgərovu Möntrö-Fot-Yon şəhərinə dəvət edib. Oktyabrın 18-də həmin şəhərdə ikitərəfli görüş keçiriləcək.

# Ceyhun Bayramov ödənişli təhsil alan tələbələr üçün əlavə dəstək mexanizmləri barədə danışdı

**Hazırda ali təhsil müəssisələrində ödənişli təhsil alan tələbələr üçün əlavə dəstək mexanizmlərinin hazırlanması üzərində iş aparılır. "Trend"in məlumatına görə, bunu Yeni Azərbaycan Partiyasının mərkəzi qərargahında keçirilən mətbuat konfransında Təhsil naziri Ceyhun Bayramov bildirib.**

Nazir deyib ki, təhsil kreditlərinin verilməsi əlavə dəstək mexanizmlərindən yalnız biridir: "Amma bu, ödənişli təhsil alan tələbələr üçün yeganə dəstək mexanizmi deyil. Hazırda əlavə dəstək mexanizmləri üzərində iş gedir. Konkret olaraq hansı formada dəstək mexanizmlərinin olacağı barədə növbəti aylarda daha geniş məlumat veriləcək".

C.Bayramov qeyd edib ki, Təhsil Nazirliyi ali məktəblərə təhsil haqqı ödənişlərini dərs ili başlayan zaman birdəfəyə deyil, hissə-hissə ödənilməsinə baxmağı tövsiyə edib: "Əminəm ki, əksər ali məktəblər məhz bu formada iş qurublar. Ödənişli təhsil alan tələbələrin təhsil haqqı ali məktəblərin gəlirlərinin böyük hissəsini təşkil edir. Buna görə də ali məktəblər təhsil haqlarından asılı vəziyyətdədirlər".

# Dünya "taxıl OPEK"i yaradılır, taxıl idxalçısı Azərbaycan üçün yeni taxıl ticarəti şəraiti...

*Taxıl qiymətləri ətrafında Azərbaycan üçün də maraqlı proseslər başlandı*

**Son günlərdə dünya taxıl bazarında Azərbaycanı da yaxından maraqlandıran müəyyən proseslər cərəyan etməkdədir. Belə görünür ki, baş verənlər taxılın qiymətinin formalaşması istiqamətində yeni bir vəziyyətin yaranmasına gətirib çıxaracaq. Bu isə əksər ölkələri, xüsusən də Azərbaycanı yaxından ilgiləndirir.**



Ən azı o baxımdan ki, ölkəmiz hələ də xaricdən böyük həcmdə taxıl idxal edir.

Məlumat üçün bildirək ki, bu ilin yanvar-sentyabr aylarında Azərbaycana 240,7 milyon ABŞ dolları dəyərində 1,112 milyon tondan çox buğda idxal olunub. Hesabat dövründə ölkəyə idxal olunan buğdanın dəyəri ötən ilin eyni dövrü ilə müqayisədə 59%, həcmi isə 34,2% artıb. Araşdırmalar hələ də göstərir ki, Azərbaycanda yerli buğda növləri tələbatı ödəmək üçün kifayət deyil. Burada keyfiyyət və məhsuldarlıq problemi də var. Ona görə də daha keyfiyyətli məhsulların Rusiyadan, Ukraynadan, Qazaxıstandan idxal edilərək unüyütmə prosesində onlardan istifadə etmək məcburiyyəti yaranır. Dəyirmanlarda 100 kiloqram buğdanı keyfiyyətli una çevirmək üçün ona maksimum 30 kiloqram əlavə Azərbaycan buğdası qatılır. Digər tərəfdən, artıq o da faktdır ki, Azərbaycanda əhalinin, ölkəyə gələn turistlərin sayı artdıqca istehlak da artır. İstehlak artdıqca un və un məmulatları üçün xaricdən daha çox keyfiyyətli buğda gətirmək zərurəti yaranır. Ona görə də Azərbaycana xaricdən gətirilən buğdanın həcmi artır. Məhz belə bir vaxtda taxılın dünya miqyasında qiymətinin müəyyən edilməsi istiqamətində, yuxarıda qeyd olunduğu kimi, maraqlı hadisələr başlanıb. Söhbət ondan gedir ki, Rusiya baş nazirinin müavini Aleksey Qordeyev taxılın qiymətinin müəyyən olunması üçün OPEC-ə analoq təşkilat yaratmağı təklif edib. Məsələ ilə bağlı Rusiyanın "RİA Novosti" agentliyi yazır: "Oktyabrın əvvəlində Qordeyev Almaniyanın kənd təsərrüfatı və ərzaq naziri Yulia Klökner ilə görüşdə taxıl istehsalçılarının beynəlxalq təşkilatının yaradılması perspektivlərini müzakirə edib. Baş nazirinin müavini hesab edir ki, "taxıl OPEC"inə Rusiya, Avropa İttifaqı, Kanada, Argentina və digər ölkələr daxil ola bilər. Qiymətlərin koordinasiyası nəhəng buğda istehsalçılarına itkilərdən qaçmaq imkanı verməklə yanaşı, həm də idxalçı ölkələr üçün taxılı daha da əlçatan edəcək.

Bu təşəbbüsün niyə məhz Moskvadan gəldiyi aydındır. Son illər ərzində Rusiya aqrosənaye məhsullarının aparıcı tədarükçüsünə çevrilib. Rusiyanın Aqrobiznes Ekspert-Analitik Mərkəzinin məlumatına görə, keçən il dünya üzrə taxılın ixracı 190,6 milyon tona çatıb. Bunun 23,1 faizi Rusiyanın ixrac etdiyi taxılın payına düşür. Qordeyevin adını çəkdiyi "taxıl OPEC"inin potensial üzvləri isə bazarın 65,7 faizini idarə edirlər. Qeyd edək ki, kənd təsərrüfatı Rusiyanın ixracatında əsas yerlərdən birini tutur. Belə ki, ölkənin kənd təsərrüfatı naziri Dmitri Patruşevin sözlərinə görə, Rusiya ərzaq ixracından ümumilikdə 25,9 milyard dollar qazanıb. Bu, ölkənin silah satışından əldə etdiyi qazancdan təxminən iki dəfə çoxdur.

Taxıl kartelinin potensial üzvləri sırasında ABŞ-ın da adı çəkilir. Lakin ekspertlər əmindir ki, Vaşinqton yeni təşkilata qoşulmayacaq. Çünki məlumdur ki, amerikalılar yalnız özlərinin liderlik edə biləcəyi beynəlxalq ittifaqlara qoşulurlar. Buna görə də Amerikanın adının çəkilməsi yalnız Qordeyevin nəzakətlilik jesti olaraq qəbul edilə bilər. Bununla yanaşı, taxıl ixracatçılarının karteli Birləşmiş Ştatların dünya ərzaq bazarında onsuz da zəifləyən mövqeyini son nəticədə sarsıda bilər. Qeyd edək ki, ABŞ-ın Kənd Təsərrüfatı Nazirliyi oktyabrın əvvəlində dərc etdiyi icmalında Rusiya istehsalı olan buğdanın ixrac həcmləri ilə bağlı proqnozu dəyişməz olaraq 34 milyon ton səviyyəsində saxlayıb, Avropadan ixracat proqnozunu isə 28 milyon tona qaldırıb. ABŞ-ın öz ixrac proqnozuna gəldikdə isə, bu göstərici 26 milyon tonadək azaldılıb.

Rusiyanın Taxıl İttifaqında (RBİ) bu rəqəmlərin doğruluğunu təsdiqləyiblər, lakin həm də qeyd ediblər ki, ölkənin xarici ixracat portfeli buğda ilə məhdudlaşmayacaq. Rusiya 2020-ci ildə arpa və qarğıdalının hesabına dənli bitkilərin ixracını 47 milyon tonadək artıracaq. Qeyd edək ki, yağlı bitkilər ixracında da Moskva Vaşinqtonu geridə qoya bilər. RBİ-nin sədri Arkadi Zloçevski isə qeyd edib ki, bu il Rusiya yağlı bitkilərin yığımında rekorda imza atacaq. Hazırda Birləşmiş Ştatlar kənd təsərrüfatı məhsullarının idxalatını artırır. 2014-cü ildə kənd təsərrüfatı məhsullarının ixracı onların idxalından 40 milyard çox idisə, hazırda bu fərq 14,5 milyard dollar təşkil edir.

Yaxın illərdə ABŞ-dan kənd təsərrüfatı məhsullarının ixrac həcmi düşməyə davam edəcək. Bunun səbəblərindən biri də Birləşmiş Ştatların Çin və Avropa İttifaqı ilə apardığı ticarət müharibələridir. Vaşinqton ticarət müharibələrində kompromisə getməsə, amerikalı fermerlər ümidlərini ABŞ-dan iqtisadi cəhətdən asılı iki ölkəyə - Meksika və Kanadaya bağlamalı olacaqlar. Onlar isə maksimum 40 milyard dollar dəyərində kənd təsərrüfatı məhsullarını almağa hazırdırlar. Bazarın bu cür sıxılması onsuz da pis vəziyyətdə olan istehsalçılar üçün böyük problemlər yarada bilər. Təkcə keçən il ABŞ-ın Orta Qərb regionunda 84 aqrar birlik müflisləşib, bu rəqəm 2007-ci ilin anti-rekordunu yeniləyib. Əsas səbəb isə böyük borc yüküdür. ABŞ-ın kənd təsərrüfatı naziri Sonni Perdyu deyib: "Son beş il ərzində fermerlərin borclarının kəskin şəkildə artdığı müşahidə olunur. Borclar 2013-cü ildən 30 faiz, yəni 315 milyard dollardan 409 milyard dollaradək artıb". Ən optimistik hesablamalara görə, bu il Birləşmiş Ştatlar kənd təsərrüfatı məhsulları ixracatında əlavə 1,9 milyard dollarlıq itki ilə üzləşəcək". Bütün bu qeyd edilənlərdən aydın olur ki, taxıl və taxıl məhsullarının qiyməti yaxın tezlikdə dünya miqyasında neft kimi yeni çəkişmə predmeti olacaq. Bu isə taxılın qiymətinin daha tez-tez dəyişəcəyini, hətta spekulyativ amillərin qurbanı ola biləcəyini istisna etmir. Məhz bu fonda taxılla bağlı baş verənlər bütün ölkələri, o cümlədən Azərbaycanı yaxından maraqlandırır. Amma bir məqamı da qeyd edək ki, Azərbaycan taxıl idxalından asılılığı azaltmaq üçün də əməli addımlar atır. Məlumat üçün qeyd edək ki, bu il taxıl biçini zamanı 3 milyon 228 min ton məhsul toplanıb. Respublika üzrə taxıl istehsalının orta məhsuldarlığı 31,3 sentner, o cümlədən buğda üzrə orta məhsuldarlıq 32,4 sentner, arpa üzrə isə 29,7 sentner təşkil edib. 2018-ci illə müqayisədə buğdanın məhsuldarlığı 2,3 sentner, arpanın məhsuldarlığı isə 1,8 sentner artıb. 2018-ci illə müqayisədə bu il 200 min ton artıq buğda və arpa məhsulu toplanıb. Qarşıdakı dövr ərzində bu rəqəmlərin artması gözlənir və belə vəziyyətdə xaricdən taxıl idxalının azalması proqnozlaşdırılır.

***Tahir TAĞIYEV***

# Əhalinin siyahıyaalınması: dayanıqlı inkişaf üçün mühüm informasiya mənbəyi



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Əhalini siyahıyaalma periodik və mütəmadi keçirilməklə, ölkədəki müxtəlif qrupları müqayisə etməyə kömək edən prosesdir. Siyahıyaalma, həmçinin, həyat keyfiyyətinin qiymətləndirilməsində əsas məlumat mənbəyidir.**

Məlumdur ki, əhalini siyahıyaalma əhali haqqında sistematik olaraq məlumatların əldə edilməsi və qeyd olunması prosesidir. Qədim dövrlərdən başlayaraq dövlətlər tərəfindən əhali haqqında məlumat əldə etməyə xüsusi diqqət yetirilib. Bunun əsas məqsədi əhalinin sosial-iqtisadi və demoqrafik strukturunu müəyyənləşdirmək və müəyyən zaman daxilində baş verən dəyişikliklərin qeyd edilməsi və tədqiqidir.

Əhalinin həyat keyfiyyətini tədqiq edən başqa sorğulardan fərqli olaraq, əhalini siyahıyaalmada ölkədəki bütün ev təsərrüfatları sorğu edilərək öz məlumatlarını təqdim edirlər. Bundan əlavə, növbəti illərdə əhalinin həyat keyfiyyətini tədqiq edən sorğular üçün daha effektiv seçmənin aparılması baxımından əhalini siyahıyaalmanın nəticələri əvəzolunmaz mənbə hesab olunur.

Məlumdur ki, Azərbaycanda çoxlu sayda millətin nümayəndələri yaşayır. Siyahıyaalma əhalinin milli tərkibinə dair, habelə əhalinin həyatının müxtəlif aspektlərini, onların məskunlaşmasını, məşğulluğunu və ölkəmizdə yaşayan xalqlar arasında qarşılıqlı prosesləri təhlil etmək üçün geniş materialdır. Hazırda əhalini siyahıyaalma əhalinin milli (etnik) tərkibi və dil bilikləri haqqında məlumatların yeganə mənbəyidir. Bu haqda cari statistikada məlumat yoxdur.

Siyahıyaalmanın əhəmiyyəti yalnız müxtəlif demoqrafik və etnoqrafik məlumat əldə etmək imkanı ilə məhdudlaşmır. Əhalini siyahıyaalma üzrə məlumatlar ölkənin inkişaf perspektivlərini qiymətləndirmək, proqnozların formalaşdırılması və Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında gələcək strategiyaların hazırlanması üçün vacibdir. Əhalini siyahıyaalma zamanı əldə edilmiş məlumatlar dövlət orqanları tərəfindən büdcənin planlaşdırılması, uzunmüddətli layihələrin hazırlanması, sosial-iqtisadi siyasətin formalaşdırılması, məhsuldar qüvvələrin keyfiyyətinin və miqdarının dəqiqləşdirilməsi, istehlak bazarının öyrənilməsi üçün zəruridir.

**"...növbəti illər üçün Azərbaycanın inkişafının bir çox parametr üzrə təsdiqini də ortaya qoyacaq"**

Millət vəkili Rüfət Quliyev bildirdi ki, ölkəmizdə on ildən bir əhalini siyahıyaalma kampaniyası həyata keçirilir və on gün ərzində bu proses yekunlaşır: "Şübhəsiz ki, bu kampaniyanın möhkəm siyasi və iqtisadi əhəmiyyəti var. Oktyabrın 1-dən 15-nə qədər davam edən əhalini siyahıyaalma kampaniyasının əhəmiyyəti və məzmunu ondan ibarətdir ki, bu kampaniyadan sonra ölkə əhalisinin sayı haqqında dəqiq, eyni zamanda, əhalinin kateqoriyaları haqqında dolğun məlumat əldə ediləcək. Bununla yanaşı, əhalinin sayının dəqiqləşdirilməsi bir sıra iqtisadi nəticələrə gəlməyə əsas verir. Birinci növbədə, əhalinin sayının artımı onun təsdiqidir ki, ölkədə sosial-iqtisadi rifah yüksək səviyyədədir. Nəzərə alsaq ki, bir çox ölkədə insanların doğumu ilə ölümü arasında kəskin təzad var".

Həmsöhbətimiz onu da vurğuladı ki, əhalinin artımına adekvat olaraq iş yerlərinin artırılması da öz həllini tapan məsələlər arasındadır: "Dövlət başçısı İlham Əliyev bu sahəyə çox böyük diqqət ayırır. Prezident özü də əhalini siyahıyaalmada iştirak edib. Onun da qeyd etdiyi kimi, əhalinin artımı ilə ölkənin iqtisadi inkişafı arasında dəqiq asılılıq mövcuddur. Hansı ölkənin ki, iqtisadi vəziyyəti aşağıdır, onun əhalisinin də sayı aşağı düşür. Demoqrafik problemlər üzə çıxır. Bu nöqteyi-nəzərdən, Prezidentin rəhbərliyi altında aparılan islahatlar özünü doğruldur. Eyni zamanda, bu, Azərbaycanın siyasi baxımdan mövqelərini gücləndirir. Əhalinin sayının artması həm də siyasi çəkisi olan məsələdir. Əhalinin sayı artdıqca, dövlətin mövqeyi də möhkəmlənir. Hesab edirəm ki, əhalini siyahıyaalma növbəti on il üçün Azərbaycanın inkişafının bir çox parametr üzrə təsdiqini də ortaya qoyacaq".

**"Əhalini siyahıyaalmanın məlumatlarına biznes sahəsində də ehtiyac duyulur"**

"Sosial Hüquqların Araşdırılması" İctimai Birliyinin sədri Mayis Əliyev bildirdi ki, əvvəki siyahıyaalmalardan fərqli olaraq, sorğu vərəqəsinə ilk dəfə olaraq daxil edilmiş əlilliyə dair suallar ölkədə sağlamlıq imkanları məhdud uşaqların və əlilliyi olan şəxslərin mənzil-məişət şəraitinə, təhsilinə və məşğulluğuna, habelə siyahıyaalma çərçivəsində toplanan digər göstəricilərə dair məlumatların əldə edilməsinə şərait yaradacaq: "Əhalini siyahıyaalma müəyyən bir zaman kəsiyində ölkədə əhalinin faktiki vəziyyətini görməyə, baş verən dəyişiklikləri təhlil etməyə və proqnoz verməyə imkan yaradır. Əhalini siyahıyaalmanın əhəmiyyəti əhalinin, hətta kiçik bir məskunlaşma yerində olsa belə, həyat fəaliyyətini hərtərəfli xarakterizə edən kompleks göstəriciləri əldə etməyə imkan verir. Məsələn, yalnız siyahıyaalma məlumatlarına əsasən əhalinin təhsil səviyyəsinə, yaşayış üçün əsas gəlir mənbəyinə dair məlumatları əldə etmək olar. Ayrılıqda şəhər və qəsəbələr, bütövlükdə, ölkə üzrə ailələrin sayını, onların tərkibini, yaşayış üçün gəlir mənbələrini və ev təsərrüfatlarının mənzil şəraitini öyrənmək mümkündür".

Ekspert onu da vurğuladı ki, əhalini siyahıyaalmanın məlumatlarına biznes sahəsində də ehtiyac duyulur, belə ki, yalnız bir ölkə üçün, region, şəhər və digər bələdiyyələr üçün əmək resurslarının tam və dəqiq görünüşünü verən statistik məlumatlar əsasında biznes inkişaf edə bilər. Digər tərəfdən isə mövcud statistika potensial istehlakçıları tanımaq üçün kömək edəcək: "Əhalini siyahıyaalma cəmiyyət üçün vacibdir. Dünya təcrübəsi göstərir ki, hər bir dövlətin əhalisi siyahıyaalmanın nəticələrini maraqla öyrənir. İnsanlar öz ölkəsinin dünya ölkələri arasında hansı yerdə olduğu ilə maraqlanırlar. Cəmiyyət müəyyən bir müddət ərzində özünün daha zəngin və firavan yaşadığını, daha təhsilli və mədəniyyətli olub-olmadığını və ya inkişafına vaxt sərf edib-edilmədiyini anlamaq üçün öz portretini görmək istəyir. Əhali əvvəlki siyahıyaalmalarla özünü və özündən əvvəl gələn nəsilləri müqayisə edir".

Bəllidir ki, əhalini siyahıyaalma tarixi ilk olaraq oktyabrın 1-10-dək müəyyən olunmuşdu. Həmin ərəfədə sosial şəbəkədə və ya elektron xəbər portallarında əhalinin bir hissəsinin siyahıya alınmadığı, ümumiyyətlə, onların qapılarının döyülmədiyi haqqında məlumatlar yayıldı. Siyahıya alınmayan əhalinin tam şəkildə siyahıya alınması üçün tarix 11-15 oktyabr tarixlərinə qədər uzadıldı.

**"Cari ilin sonunadək ölkənin bütün rayon və şəhərlərində siyahıyaalmanın keyfiyyətinin yoxlanılması məqsədilə müvafiq tədbirlər görüləcək"**

İqtisadçı-ekspert Vüqar Bayramov bildirdi ki, siyahıyaalma ölkə üçün mühüm əhəmiyyətə malikdir: "BMT-nin Statistika Komissiyası əhalini siyahıyaalmanı qiymətləndirən zaman bunun social-iqtisadi hadisə olduğunu bildirir. O baxımdan, Azərbaycanda da siyahıyaalma ölkəmizdə iqtisadi siyasətin növbəti illərdə mövcud çağırışlara uyğun olaraq təkmilləşdirilməsi, yeni iqtisadi proqramların reallaşması baxımından vacibdir. Nəzərə alsaq ki, bu siyahıyaalma yalnız vətəndaşlarımızın sayını deyil (halbuki, bunu rəsmi qeydiyyat ilə də müəyyənləşdirmək mümkündür), əslində, daha çox ixtisaslı kadrların yerləşmə coğrafiyası, Azərbaycanda ixtisaslı kadrların, eləcə də xarici dil biliyi olan vətəndaşların sayının necə dəyişməsi, daxili miqrasiya, fiziki imkanları məhdud olan şəxslərin işlə təmin olunması və eyni zamanda, qeyri-rəsmi məşğulluq, qeyri-leqal iqtisadiyyatın dövriyyəsinin müəyyənləşdirilməsi baxımından da vacibdir. Halbuki, bu göstəricilərin rəsmi statistika ilə əldə edilməsi ya mümkün deyil, ya da çətindir. O baxımdan bu, əslində, sadəcə, bir siyahıyaalma deyil, daha çox növbəti dövrlərdə iqtisadi siyasəti müəyyənləşdirəcək faktorlardan biri kimi xarakterizə olunmalıdır".

Dövlət Statistika Komitəsinin mətbuat katibi Elməddin Quliyev qeyd etdi ki, siyahıyaalmanın keyfiyyətinin yoxlanılması zamanı aşkar olunmuş nöqsanların aradan qaldırılması, eyni zamanda, siyahıyaalma dövründə müxtəlif səbəblərdən siyahıyaalmadan kənarda qalmış şəxslərin də bu işə cəlb edilməsi məqsədilə bütün yerli statistika orqanlarında operativ qruplar yaradılıb: "Həmin qruplar tərəfindən ilin sonunadək hər bir müraciət üzrə müvafiq tədbirlərin görülməsi təmin ediləcək. Ölkənin bütün rayon və şəhərlərində yaradılmış əhalini siyahıyaalmaya yardım komissiyalarından daxil olmuş məlumatlara görə, ölkəmizdə keçirilən əhalini növbəti siyahıyaalma əsasən başa çatıb. Cari ilin sonunadək ölkənin bütün rayon və şəhərlərində siyahıyaalmanın keyfiyyətinin yoxlanılması məqsədilə müvafiq tədbirlər görüləcək, o cümlədən, təlimatçı-nəzarətçilər tərəfindən sayıcılardan siyahıyaalma sənədlərinin qəbul edilməsi, onların yoxlanılması, siyahıyaalma məntəqələrinin müdirlərinə təhvil verilməsi, daha sonra isə həmin materialların Dövlət Statistika Komitəsinin Siyahıyaalma qrupuna təqdim edilməsi prosesi həyata keçiriləcək. Bu proseslər tam başa çatdıqdan sonra - 2020-ci ilin yanvar ayından etibarən həmin məlumatların Dövlət Statistika Komitəsində xüsusi yaradılmış elektron informasiya sisteminə daxil edilməsinə başlanacaq".

Sonda qeyd edək ki, ölkəmizdə keçirilən əhalini növbəti siyahıyaalma prosesi nəticəsində əldə ediləcək statistik məlumatlar Azərbaycanın gələcək inkişaf prioritetlərinin düzgün müəyyənləşdirilməsində əsas informasiya mənbəyi rolunu oynayacaq.

*Günel CƏLİLOVA*

**Yazı Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi birgə müsabiqəyə təqdim etmək üçündür.**

# AMEA institutlarının magistr təhsilində ciddi problem - müəllimlər dərsə gəlmir

## *İlqar Orucov: "Akademiya rəhbərliyi kimdən kimə şikayət edir?"*

**Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) ölkənin baş elmi mərkəzi olsa da, bu qurumun elmi-tədqiqat institutlarının vəziyyəti elə də ürəkaçan deyil. Məlum olduğu kimi, artıq bir neçə ildir AMEA-nın müvafiq institutlarında magistr pilləsi üzrə təhsil verilir. Əslində, bu prosesin başlanmasına səbəb müvafiq institutların kadr potensialının gücləndirilməsi olub.**

Yəni institutlar özləri təhsil verdikləri magistrləri gələcəkdə öz kadrları kimi yetişdirməlidirlər. Məqsəd budur. Uzun müddətdir AMEA-da magistr təhsili alan gənclərin burada bir sıra əngəllərlə rastlaşdığı barədə məlumatlar dolaşır. Bildirilənə görə, magistrlərə lazımi qaydada dərslər keçilmir. Ölkənin baş elmi mərkəzində magistrlərin təhsilinə bu şəkildə barmaqarası yanaşılması təəccüb doğurur. Halbuki, bu qurumun universitetlərdən daha artıq təhsil verməK, kadr yetişdirmək potensialı var. Amma AMEA bu potensialı magistrlərə, doktorantlara xərcləmək istəmir. Magistrlərin günlərlə dərslərə qatılmasına baxmayaraq, onların dərsləri çox zaman boş keçir.

Faktın özünü AMEA rəhbərliyi də təsdiqləyib. Belə ki, Akademiyanın Rəyasət Heyətinin iclasında akademik-katib Əminağa Sadıqov çıxış edərək bu problemə toxunub. O bildirib ki, AMEA-da dərs deyən müəllimlər vaxtlı-vaxtında işə gəlmirlər. "Azərbaycan Milli Elmlər Akademiyasının magistraturasında tədris prosesində davamiyyətlə bağlı bir sıra problemlər var".

Ə.Sadıqovun sözlərinə görə, aparılan monitorinqlər zamanı bir sıra nöqsanlar aşkarlanıb: "Akademiyanın bəzi institutlarında - Tarix, Fəlsəfə, Coğrafiya, Neft və Qaz, Radiasiya, Torpaqşünaslıq və Aqrokimya, İqtisadiyyat institutlarında magistrlərə dərs demək üçün auditoriyalar yoxdur. Halbuki, mühazirənin deyilməsi üçün ayrıca otağın olması lazımdır. Bəzi hallarda isə kiçik bir iş otağında müəllim magistrə dərs keçmək istəyir".

Ə.Sadıqov qeyd edib ki, bəzən magistr otaqda olsa da, müəllim gəlmir, ya da dərsə gecikir: "Hətta elə hallar olur ki, magistr auditoriyada oturub gözləyir, amma ona dərs deyən müəllim gəlib çıxmır, məlum olur ki, o, elmi məzuniyyətə gedib. Təəssüf ki, dərs prosesinin ciddiliyi bəzi institutlarda yaxşı dərk olunmur. Xüsusilə "Boloniya" sisteminin tətbiqi şəraitində hər bir dərs magistr üçün kreditlərin hesablanmasında vacib rol oynayır. Bu kimi problemlər sonradan magistrin diplomsuz qalmasına gətirib çıxara və ciddi mübahisəyə səbəb ola bilər".

O, həmçinin, magistr təhsili ilə bağlı dərslik probleminin mövcudluğunu, bütün ixtisaslar üzrə proqramların müasirləşməsinin vacibliyini söyləyib.

Ə.Sadıqov əlavə edib ki, bu il AMEA-nın magistraturasına 22 ixtisas və 75 ixtisaslaşma üzrə 120 nəfər qəbul olunub. Bu göstəricələr ötən illə müqayisədə iki dəfə artıb: "Tədris prosesinə cəlb olunan müəllimlər AMEA-nın tanınmış alimləri sırasından seçilir. Burada 5 akademik, 19 müxbir üzv, 41 professor, 66 elmlər doktoru və 101-i dosent olmaqla, 127 nəfər fəlsəfə doktoru dərs deyir. 2019-cu ildən AMEA-da ödənişli magistr təhsilinə başlanıb. Magistr hazırlığı 26 elmi-tədqiqat institutu ilə aparılır".

AMEA prezidenti Akif Əlizadə isə Akademiyanın Rəyasət Heyətinin akademik-katibi Ə.Sadıqova cavab verərək qeyd edib ki, magistratura pilləsinin akademiyada açılması üçün çox çətinlik çəkib. O qeyd edib ki, Akademiyada magistratura pilləsində təhsil səviyyəsi fərqli formada təşkil edilir: "Ancaq dediklərinizdən görünür ki, kifayət qədər çətinlik var. Bütün bu sadalanan nöqsanlar bizə yaxşı nəticə üçün ad gətirməz. Haradan əlavə otaq verək? Bir otaq tapmaqla məsələ həll olunmur. Həmkarların sayı haqqında düşünülməlidir. Bəlkə, yenə də bəzi institutları birləşdirək?!".

"Hər il 100 magistr qəbul edəcəyik. Hamı gəlib deyir ki, magistrlərə ştat verək. Ştatları hardan, necə verəcəyik? Akademiyanın, təxminən, 11 min ştatlı işçisi var. Onda gəlin bəzi işçiləri işdən çıxaraq. Hamı ştata düşmək istəyir. Əgər lazımi şərait yaradılmırsa, deməli, Akademiyada magistratura pilləsi bağlanmalıdır. Bu təhsil pilləsini yaratmışıq ki, inkişaf edək. Məcburi deyil ki, Akademiyanın 27 institutunda magistr təhsili olsun. Misal olaraq 7 institutda olsun, amma keyfiyyətli təhsil verilsin".

A.Əlizadə onu da vurğulayıb ki, bu sahədəki problemlər aradan qaldırılmasa, magistrlər küsüb gedərlər: "Onlar bir-birilə söhbət edəndə deyirlər ki, Akademiyada şərait yoxdur. Bunu institut direktorları da yaxşı bilirlər. Ona görə də xahiş edirəm ki, bu istiqamətdə elmi şuralarda da açıq söhbət aparıb qərar qəbul edilsin. İnstitut və bölmələrdə bu sahəyə olan ciddilik artırılmalıdır. Gələn il də analoji monitorinqləri keçirərik. Əgər nəticələr eyni olacaqsa, növbəti il üçün yer sayı sifariş edəndə qəbul planını azaldarıq. Əsas olan keyfiyyətli tədris prosesidir" - deyə AMEA prezidenti qeyd edib.

Göründüyü kimi, AMEA-da magistr təhsili alan tələbələr həqiqətən də ciddi problemlərlə üzləşiblər. Onlar bir tərəfdən auditoriya çatışmazlığı, dərsliklərin qıtlığı, başqa bir tərəfdən isə müəllimlərinin dərsə gəlməməsi, dərslərin boş keçməsi ilə qarşılaşıblar.

Akademiyada mövcud olan problemlər ölkə başçısı İlham Əliyevin AMEA qarşısına qoyduğu tələblərlə, arzu və çağırışlarla heç cür uzlaşmır. Elmi mərkəzləri kadrla təmin etməli olan bir qurum bu gün belə bir vəziyyətdə qalıb. Gah deyirlər ki, müəllim çatışmazlığı var, gah deyirlər auditoriya yoxdur, gah da dərsliyin olmamasından giley edirlər.

Məsələyə münasibət bildirən Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov problemin kökünün dərin olduğunu bildirdi. İ.Orucov "Bakı-Xəbər"ə dedi ki, bu olduqca aktual və vacib bir problemdir: "Vaxtilə Azərbaycan Milli Elmlər Akademiyasında magistratura təhsilinin verilməsi ilə bağlı təklifi biz vermişdik. O zaman fikirləşirdik ki, Akademiya bu istiqamətdə kadr hazırlığını həyata keçirsə, gələcəkdə bu kadrların Akademiyada qalıb işləməsinə, bununla da elmdə gəncləşmənin baş verməsinə nail ola biləcəyik. Amma təəssüflər olsun ki, Akademiyada magistratura pilləsində təhsil özünü doğrultmadı. Bu da səbəbsiz deyil. AMEA-nın 11 min nəfər əməkdaşı var və onların çoxu da boş ştatlardır. Ona görə də Akademiyanın gəncləşməsi prosesi çox ləngidi. Akademiyada olan insanların yaratmaz fəaliyyətinin nəticəsidir ki, burada elmdən başqa nə desən var. Əslində, Akademiya düşünməlidir ki, dünya elmi hansı istiqamətdə inkişaf edir, dünyada hansı elmi istiqamətlərdə işlər aparılır, Azərbaycan elminin dünya elm məkanında yeri hansı səviyyədədir? Amma hara gəlib düşmüşük, bu qurum bunun fərqində deyil. Akademiya rəhbərliyi kimdən kimə şikayət edir? Bu işləri həyata keçirməli olan, bu işlərə məsul olan, buna görə də dövlətdən məvacib alanlar sizsiniz və bu işləri siz həyata keçirməli idiniz. Akademiyada magistratura təhsil pilləsinin açılması ilə bağlı arzu ifadə olundu, bununla bağlı dövlət müvafiq kvota ayırdı və bu sahəyə qəbul prosesi həyata keçirildi. Akademiya magistr hazırlığını heç ali məktəblər səviyyəsində həyata keçirə bilmir. Bu qurum bu işi həyata keçirə bilmirdisə, nəyə görə magistraturanın açılmasını istəyirdi? Akademiya rəhbərliyi hələ bilmir ki, bu magistrlərə hansı müəllimlər dərs deyir. Bu qurumun verdiyi magistratura təhsili ali məktəblərin verdiyi təhsildən fərqlənməyəcəkdisə, magistraturanın Akademiyada açılmasının nə mənası vardı? Onsuz da ali məktəblər magistratura təhsilini həyata keçirirlər".



## *"Akademiya magistr hazırlığını heç ali məktəblər səviyyəsində həyata keçirə bilmir"*

İ.Orucov qeyd etdi ki, bu gün elmin idarə olunması sahəsində çox ciddi problemlər var və Akademiyada təhsil alan magistrlərin də problemləri bundan qaynaqlanır. İ.Orucov əlavə etdi ki, Akademiya rəhbərliyi səviyyəsində də çox ciddi problemlər mövcuddur və bunun nəticəsində bu kimi məsələlər ortaya çıxır.

Onun sözlərinə görə, magistratura təhsili vermək iqtidarında olmayan AMEA-nın nəzdində uşaq bağçasının, liseyin, musiqi ansamblının, rəqs qrupunun yaradılmasına nə ehtiyac var? "Bir neçə gün bundan əvvəl Azərbaycan Milli Elmlər Akademiyasında musiqi ansambli, rəqs qrupu yaradılıb. Bu, cəmiyyətdə çox gülünc bir hadisə, Akademiyanın adına, fəaliyyətinə, missiyasına yaraşmayan bir məsələdir. Bunları yaratmaqla Akademiyanı gülüş hədəfinə çeviriblər. Bu qurumdakılar öz üzərlərinə düşən vəzifəni yerinə yetirə bilmirlər, bu kimi işlər görürlər. Elm hansı vəziyyətdədir, elm hansı səviyyədədir, bunu düşünmək əvəzinə, bu kimi işlərlə məşğul olurlar. Burada, əslində, çox qəribə vəziyyət yaranıb. Hesab edirəm ki, Akademiya bu işi həyata keçirə bilmirsə, birbaşa magistratura bu qurumdan alınıb ali təhsil müəssisələrinə verilməlidir. Düşünürəm ki, bu belə daha yaxşı olardı".

Akademiya haqqında mövqeyinin fərqli olduğunu deyən İ.Orucov hesab edir ki, AMEA öz fəaliyyətində ciddi dönüş yaratmalıdır. Dünyanın elm tutumlu ölkələrində akademiyalar alimlər klubu kimi fəaliyyət göstərirlər.

***İradə SARIYEVA***

№ 186 (4084) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

18 OKTYABR 2019-cu il

www.baki-xeber.com

# Dinozavrları yox edən meteoritin Yer kürəsi ilə toqquşduğu gün nələr yaşanıb...

**Elm adamları 66 milyon il əvvəl yaşanan və dinozavrların, eləcə də, canlıların 75 faizinin məhvinə səbəb olan nəhəng bir meteoritin planetimizlə toqquşmasının izlərini daşıyan qaya nümunələri ilə Yer kürəsinin ən "qaranlıq günlərindən" birini aydınlığa çıxarıblar.**

"AZƏRTAC" xəbər verir ki, ABŞ-ın Texas Universitetinin rəhbərliyi ilə tədqiqat aparan qrup Meksika körfəzinin dərinliklərindəki qayalardan qazma yolu ilə çıxarılan 130 metrlik bir hissənin tərkibindəki qalıqları araşdırıb. Dinozavrların bu meteorit zərbəsi nəticəsində məhv olduğu və məməlilərin inkişafa başladığı məlumdur. Meteorit toqquşmasının təsirinin İkinci Dünya müharibəsində atılan atom bombasının ef-



fektindən 10 milyard qat çox olduğu təxmin edilir. Meteorit Meksikanın Yukatan yarımadasına düşüb və ölçüsü 200 kilometr olan bir krater meydana gətirib. Toqquşmanın nəhəng bir sunami və hətta 1500 kilometr məsafədə yanğınlara səbəb olduğu bilinir. Geoloqlar meteoritin düşməsindən sonra yaranan Çiksulub kraterini 1991-ci ildə kəşf ediblər. On iki kilometr diametrə malik meteoritin Yer kürəsi ilə toqquşması nəticəsində ölçüsü 100 və dərinliyi 30 kilometr olan bir çuxur meydana gətirib. Sonradan bu çuxurun yan tərəflərinin çökməsi ilə kraterin ölçüsü 200 kilometrə qədər artıb və dərinliyi bir neçə kilometr azalıb. Hazırda kraterin böyük bir qismi dənizin 600 metr dərinliyində qalıqların altındadır. Quruda qalan qismi isə əhəngdaşı ilə örtülmüş bir haldadır. Lakin kənarlarında yaranan karstların meydana gətirdiyi qövslər krateri bəlli edir. 2016-cı ildə ingilis və amerikalı tədqiqatçıların rəhbərlik etdiyi bir qrup həftələrlə həmin kraterdə qazma işləri aparıb. Komanda bu günə qədər kraterin Çiksulub limanındakı ən yaxşı vəziyyətdə qalan ərazilərindən birində apardığı qazma işləri zamanı 66 milyon illik izləri daşıyan uzun bir qaya nümunəsi çıxarıb. Onun 130 metrlik hissəsi geoloqların Kaynazoy erası (Məməlilər dövrü) adlandırdıqları dövrün ilk gününə aid olan qalıqları özündə saxlayır. Elm adamları aşkarlanın hissənin tərkibinə nəzərən meteorit düşməsindən sonra baş verənlər haqqında daha ətraflı məlumat əldə edəcəklərini deyiblər. 130 metrlik hissənin altdakı 20 metri tərkibində şüşəyəbənzər tullantılar saxlayır. Bu hissə zərbədən sonrakı saniyə və dəqiqə ərzində kraterin dibinə yayılmış və toqquşma nəticəsində yaranan istilik və təzyiqlə əriyən qayadan ibarətdir. Hissənin ən üst təbəqəsində isə toqquşmadan sonra yaranan sunaminin izləri var. Alimlər toqquşmanın nəhəng dalğalar əmələ gətirdiyini və onların kraterdən yüzlərlə kilometr uzaqlara qədər çatdığına inanır. Ancaq gedən dalğalar geri qayıdanda həmin bölgələrdən tullantılar da gətirib. 130 metrlik hissənin ən üst qatını da məhz onlar təşkil edir. Texas Universitetinin professoru Sean Qulik bütün bunların toqquşmanın ilk günündə baş verdiyini deyir. Bununla yanaşı, üst qatdakı qalıqlar torpaq izləri və toqquşmadan sonra baş verən yanğınların qalığı olaraq kömür də ehtiva edir. Maraqlısı odur ki, 130 metrlik hissənin heç bir yerində kükürdə rast gəlinməyib. Ancaq meteorit təxminən yarısı kükürd tərkibli minerallardan ibarət olan dəniz dibinə dəyməli idi. Həmin kükürdün xaric edildiyi və ya buxarlandığı təxmin edilir.

Bu isə dinozavrların yox olması ilə əlaqədar geniş yayılmış mülahizəni dəstəkləmiş olur. Belə ki, su ilə qarışan və səmaya yüksələn bu qədər kükürdün iqlimin soyumasına səbəb olduğu və bitki və heyvanların yaşamasını çətinləşdirdiyi təxmin edilir. Professor Sean Qulikin dediyinə görə, 100 giqaton kükürdün atmosferə daxil olması havanın temperaturunun 25°C enməsinə səbəb olur və belə vəziyyət ən azı 15 il davam edir. Bu isə dünyanın bir çox bölgəsində havanın temperaturunun donma dərəcəsindən də aşağı olması deməkdir. Professor meteorit düşməsindən sonra atmosferə 325 giqaton kükürdün daxil olduğunu qeyd edib. Uzun illər ekstremal vəziyyətə çatan həmin iqlim dəyişikliyi dinozavrların sonu olub və məməlilər bu vəziyyətdə sağ qalıblar.

## Elan

Şəki rayonu, Turan qəsəbə sakini Cabbarova Sevinc Adil qızının adına verilmiş yaşayış evinin qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Baş Layısqı kənd sakini Bəkirov Şavəddin Hacıbala oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 106 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Sabunçu rayonu, Maştağa Bələdiyyəsi, Nizami küçəsinin sonunda yerləşən 2 sot torpaq sahəsinin sahibi Babayeva Məhbubə Rasim qızının adına məxsus (№ 566) 03.11.2005-ci il tarixli sərəncam itdiyi üçün etibarsız sayılır.

Xudaverdiyev Elman Əli oğlunun adına, Xırdalan şəhəri, H.Aslanov küçəsi "1 SON" MTK tərəfindən verilmiş bina 1, mənzil 111 evin müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Yasamal rayonu, 546-cı məhəllə, Ş.Mehdiyev küçəsi, 19 "C" bloku üzrə 17 mərtəbəli binanın 13-cü mərtəbəsində, mənzil 4 a-da yerləşməkdə olan "Avanqard" MMC ilə Şahpələngova Aynur Məhərrəm qızı arasında olan müqavilə № 34 itdiyi üçün etibarsız sayılır.

İsmayılov Ramil Əlihüseyn oğlunun adına, Abşeron rayonu, Aşağı Güzdək qəsəbəsində yerləşən torpaq sahəsinə verilmiş çıxarış, texniki pasport və torpaq sahəsinə məxsus digər sənədlər itdiyi üçün etibarsız sayılır.

Quliyev Elmir Əlihəsən oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Allahyarov Emin Bahadır oğlunun adına, Bakı şəhəri, Sabunçu rayonu, Babək küçəsi, ev 15 a, mənzil 1 ünvanına verilmiş çıxarış (kupça) itdiyi üçün etibarsız sayılır.

Allahyarov Aleksandr Bahadır oğlunun adına, Bakı şəhəri, Sabunçu rayonu, Babək küçəsi, ev 9, mənzil 7 ünvanına 28.02.2006-cı il tarixdə verilmiş qeydiyyat vəsiqəsi (№ 262597) itdiyi üçün etibarsız sayılır.

Məmmədov Yuriy Məmmədoviçin adına məxsus, Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mikrorayon, Üzeyir Hacıbəyov küçəsi, ev №6, mənzil №12 ünvanının sahibinə məxsus, Üzeyir Hacıbəyov küçəsi, ev №2/10 həyətində yerləşən qarajın 30/240 saylı, 06. 03.1999-cu il tarixli texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Məcnunlu Aysel Adil qızına Qərbi Kaspi Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Səhər saatları yetərincə maraqlı olacaq. Fəaliyyət sahəsini və ya istiqamətini özünüz seçə bilərsiniz. Maraqlı olaylar gözlənilir. İdeyalarınızı reallaşdırmaq üçün münasib zamandır.

**Buğa** - Diqqətli, sayıq olun. Rəqiblər sizi üstələməyə çalışacaqlar. Fəaliyyət müstəvisindəki situasiyanı diqqətlə izləyin. Yeni tapşırıqlar və sifarişlər ala bilərsiniz. Səfər, səyahət, ezamiyyət istisna deyil.

**Əkizlər** - Həddən artıq fəal olmayın. Qarşınıza qoyduğunuz məqsədə qarşı daha sürətlə irəliləmək istəyirsinizsə, hədəfləri təftiş edin. Genişmiqyaslı layihələrin reallaşdırılması üçün münasib zamandır.

**Xərçəng** - Tələsik addımlar atmayın, düşünülməmiş qərarlar verməyin. Peşəkar fəaliyyət sahəsində yarana biləcək problemlərin həllində yaradıcı davranış sərgiləyin. Ruhdan düşməyin.

**Qız** - Qarşılıqlı münasibətlərdəki anlaşılmazlıq inciklik və iradlar yarada bilər. Öhdəlikləri qulaqardına vurmayın. Diqqətli olun, səliqəli davranın. Evdəki situasiya nəzarətdən çıxmamalıdır.

**Tərəzi** - Ən sadə və ilk baxışdan asan təsir bağışlayan məqsədə çatmaq üçün ciddi səy göstərməli olacaqsınız. Bu, sizi yetərincə qıcıqlandıracaq. Lakin emosiyaların qurbanına çevrilməyin, mühüm işi yerinə yetirməyə başlayın, irəliləməyə, hədəfə çatmağa çalışın.

**Əqrəb** - Enerji tonusunuza diqqət verin. Təhlükəli gərginliyin yarandığını hiss etdiyniz məkanda ehtiyatlı olun. Problemli situasiyanı sürətləndirən və dərinləşdirən amillər sizin üçün siqnal olmalıdır.

**Oxatan** - Böyük maliyyə xərcləri tələb edən planlar var. Gəlir mənbələrini gücləndirmək və artırmağın yollarını düşünün. İşinizi səmərəli edin, daha az vaxt sərf edərək daha çox iş görməyi düşünün.

**Oğlaq** - Avantürizmə qapılmayın. Mənasız risklər uğur gətirməyəcək. Bununla yanaşı, təşəbbüskar olun. Karyeranızda irəliləyişlər istəyirsinizsə, fəal olun. Yaradıcılıq fəaliyyəti üçün yaxşı zamandır.

**Dolça** - Arxa planda qalsanız, vurnuxmayın, irəli atılmayın. Eqoizm zamanı deyil. İddialı davranış planları alt-üst edə bilər. Günün ikinci yarısında kollektiv fəaliyyətin nüanslarını aydınlaşdırın.

**Balıqlar** - Mövcud situasiyaya alışmağa çalışın. İş şəraiti o qədər də pis deyil. Yeni tapşırıq, layihə və ya sifarişlə bağlı razılıq verməzdən əvvəl detallarla tanış olun. Yaxın ətrafınızdakı insanlarla mübahisə etməyin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

nar

Gəlin birlikdə böyüyək

**"Nar" abunəçilərinin nəzərinə!**

**29.10.2019-cu il tarixindən etibarən "Full" paketlərinə dəyişikliklər ediləcək.** Daha ətraflı məlumatı nar.az səhifəsindən əldə etmək olar.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

**e-mail: azer22@mail.ru**

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.